


## Azərbaycanda daha hansı bank bağlana bilər? - AÇIQLAMA

*""Günay Bank"ın məcmu kapitalla bağlı probleminin olub-olmaması özü mübahisəli məsələdir. Ona görə ki, Azərbaycan Mərkəzi Bankı ötən il orada yoxlama aparıb və indiyə qədər həmin yoxlamanın nəticəsini banka təqdim etməyib". Bunu "Unikal"a açıqlamasında iqtisadçı-ekspert Əkrəm Həsənov deyib. Onun sözlərinə görə, kimin doğurdan da kapitala riayət edib, etmədiyi bilinmir:"Yəni, Mərkəzi Bankın bu sahədəki.*

Səh.8


# UNİKAL

№19 (2153) 19 may 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru




Səh.9

# Tərəflərin növbəti Rusiya görüşü: Nəticə olacaq, yoxsa...



# Ombudsmandan Dövlət Departamentinin hesabatına reaksiya

*Ombudsman Səbinə Əliyeva ABŞ Dövlət Departamentinin illik hesabatında əks olunmuş məsələlərə münasibət bildirib. Ombudsman Aparatından "Unikal"a daxil olan məlumatda deyilir ki, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən tutulmuş və ya həbs edilmiş şəxslərin Ombudsmana ünvanlanan təklifləri, ərizələri və şikayətləri təxirə salınmadan, senzuradan keçirilmədən aidiyyəti üzrə göndərilir. Ombudsman bu məsələni hər zaman diqqətdə saxlayır və saxlanılan şəxslərin senzurasız yazışmalarını daim monitorinq edir.*

Səh.2

## "Bank sektorunda ciddi rəqabətsizlik mühiti var"



*REAL Partiyasının icra katibi, itqisadçı-ekspert Natiq Cəfərli "Unikal"a müsahibə verib. O, "Günay Bank"ın lisenziyasının ləğv olunmasından, Əmanətlərin Sığortalanması Fondunun fəaliyyətindən, bank faizlərinin hansı səbəbdən yüksək olmasından və başqa məsələlərdən danışıb.*

Səh.4

## Nazim İbrahimov başını itirib



*Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (2002-2008) və Diaspora İş üzrə Dövlət Komitəsinin (2008-2018) sabiq sədri olmuş Nazim İbrahimov pis vəziyyətdə qalıb. Belə ki, o, Rusiyanın təcavüzünə məruz qalan Ukraynadakı biznesini bu ölkədən çıxarmaq üçün bir müddətdir ki...*

Səh.5

## Müəllimlərin sertifikasiyası kütləviləşir



*Azərbaycanda təhsil sahəsində aparılan islahatlar, müxtəlif təhsil proqramlarının hazırlanması ölkəmizdə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən amillərdəndir. Ötən ildən müəllimlərin sertifikasiyaya cəlb olunması da bu qəbildən görülən tədbirlərdəndir. Dünən elm və təhsil naziri Emin Əmrullayev keçirdiyi brifinqdə bildirdi ki, keçən il sertifikasiyadan kəsilmiş müəllimlər...*

Səh.11

# "Dilarə o soyunan qızdır?" - Şəbnəm tanımadı



***Müğənni Dilarə Kazımova qonaq olduğu proqramda ifa zamanı Şəbnəm Tovuzlunun adını hallandırıb.***

Belə ki, sənətçi "El Canlı" proqramında təşkil olunan əyləncəli rubrikada iştirak edib. İfaçı "Dəm olmuşam" mahnısının sözlərini dəyişdirərək, ona yaradıcı heyət tərəfindən təqdim olunan "Nəm olmuşam, Tovuzlu Şəbnəm olmuşam, neyləyim?" - deyə, oxuyub. Dilarə həmçinin, müğənni Türkan Vəlizadənin də adını çəkib.

Yumoristik görüntülər sosial şəbəkələrdə yayılıb. İzləyicilərin fikrincə, Dilarənin bu hərəkəti özünü adını çəkdiyi ifaçılardan üstün görməsi kimi düşünülüb.

Milli.Az olay-a istinadən xəbər verir ki, müğənni Şəbnəm Tovuzlu qeyd edib ki, Dilarəni tanımır: "Dilarə Kazımova kimdir ki? Mən heç onu, elə bir müğənnini tanımıram. Dilarə o soyunan qızdır? Heç kəs məni lağa qoya bilməz. Heç kəs Şəbnəm Tovuzlu da ola bilməz".

Ş. Tovuzlunun bu sözlərinə qarşı tərəfdən reaksiya verilib. Dilarənin prodüseri OLAY-a bildirib ki, sənətçi qalmaqal yaratmaq məqsədində olmayıb: "Verilişdə mahnının sözləri əvvəldən dəyişdirilib və Dilarə xanımın bu cür oxuması xahiş edilib. Orada qəbahətli bir şey yoxdur. Hamıya məlumdur ki, Dilarə Kazımova hər zaman qalmaqaldan uzaq biridir. Məqsədi qıcıq, ya da qalmaqal yaratmaq olmayıb".

# Nadir: "Tələbələrin fikri dərsdə yox, telefonda, bulvardadır"



***"İxtisasım müəllimlikdir, opera və vokal müğənnisi. Amma müəllimlik etməyə hövsələm yoxdur. Əvvələr tələbələr sözəbaxan idi. Fikirləri telefonda, bulvarda, "Torqovi"da deyildi".***

"Unikal" bizim.media-ya istinadən xəbər verir ki, bu sözləri müğənni Nadir Qafarzadə qonaq olduğu "Xəzər axşamı" verilişində deyib.

Məktəb illərində müəllimi tərəfindən "şapalaq"landığını etiraf edən sənətçi bildirib ki, indi müəllimlər şagirdləri tənbeh edəndə valideynlər üsyan edir: "Yadıma gəlir ki, orta məktəbdə oxuyanda nadinclik edirdim, müəllimim mənə şapalaq vururdu. Demirəm ki, şapalaq lazımdır, amma bu kimi hallar olurdu. Bunu da etiraf edirəm. Amma o şapalaqdan biz nəticə çıxarırdıq ki, gələn səfər şapalaq almayaq. Və ya bizi küncə qoyub, üzümüz divar tərəfə, bir ayaq üstə saxlayırdılar. Bunlar hamımızın başına gəlib. Anama gəlib deyirdim ki, müəllim məni vurub. O isə cavab olaraq söyləyirdi ki, "Yaxşı edib. Özünü yaxşı aparardın, səni vurmayaydı". Amma indi valideyn deyir ki, "Hardadır səni döyən müəllim? Ona bilirsən nələr edərəm? Uşaq da baxır ki, anam arxamda durub, ondan betərini edəcəyəm".



# "Geyimlə tərbiyə ölçülməsinə qarşıyam" - Səmra Rəhimli

***"Geyimlə əxlaq ölçmək heç doğru deyil". Bunu "Şou xəbər"ə açıqlamasında müğənni Səmra Rəhimli deyib.***

İddialı geyimləri ilə diqqət mərkəzində olan müğənni onu buna görə qınayanlardan danışıb. Bildirib ki, insanın əxlaqı onun vicdanıdı, tərbiyəsidir.

"Mən geyimlə tərbiyə ölçülməsinə tam qarşıyam".

S.Rəhimli sənətdə olduğu illər ərzində haqqında artıq-əskik heç nə danışılmadığını da deyib.

"Şükür Allaha ki, tərbiyəm də yerindədir. Mənim dostum anamdır, bacımdır. Səmra Səmradır, olduğu kimidir",- deyə müğənni qeyd edib.

# Aynişan izləyicisini polisə verdi



***Əməkdar artist Aybəniz Haşımovanın bloger qızı Aynişan Quliyeva izləyicisini polisə şikayət edib.***

Buna səbəb sosial şəbəkə istifadəçisinin ona təhqir yazması olub. Aynişan bildirib ki, son günlər instaqram səhifəsində ona çox sayda neqativ mesajlar yazılır: "10 gündür səhifəmdə çox sayda neqativ mesaj və şərhlər görürəm. Onlardan birini seçdim və ərizə yazıb polisə şikayət etdim. Şəxsən tanış olmaq, dərdini bilmək istəyirəm. Beş il öncədə belə bir hadisə yaşanmışdı. Polis həmin şəxsi tapıb gətirmişdi. Görüş nəticəsində ağlayaraq fanatımız olduğunu dedi. Hətta hicablı, dindar bir qadın idi. Bu, tanımadığı insana ləkə yaxa bilər. Başa düşürəm, bu aralar biraz daha aktivəm, amma bunun sizi niyə narahat etdiyinin dərinliyinə kimi bilmək istəyirəm".

# "Hiss Formula 1 səhnəsində olmamalıydı"

***Müğənni-aparıcı Mehin Hümbətova və rəqqasə Rəna Ağamuradova (Renka) müğənni Hissi tənqid ediblər.***

Onlar bu barədə "7 özəl" verilişində danışıblar.

Renka Hiss və Səmra Rəhimlinin Formula 1-dəki çıxışlarını müqayisə edib: "Heç kimin xətrinə dəymək istəmirəm. Hissi qeyri-adi olmağına, davranışına görə sevdilər. Onu orada rəqqaslarla, hip-hopla, ritmlə səhnəyə çıxardılar. Mən onu elə görmək istəmirdim. İstəyirdim ki, tərsinə olsun, şou etsin, lakin nəsə maraqlı bir şey hazırlasın. Başqa rəqslər olardı. Belə yox. Çünki o Hiss deyildi. Onun mahnıları kölgədə qaldı. Rəqqaslar gümüşü və çəhrayı rəngdə geyinməsəydilər".

Mehin Hümbətova isə bildirib ki, Hiss Formula 1 səhnəsində olmamalıydı: "Olsa da, elə çıxmamalıydı. Çünki Səmra öz sözünü dedi, özünü təsdiqlədi. Hər ikisinin də rəqqasları rəngarəng geyinmişdilər. Sanki Hiss rəqqasların kölgəsində qaldı. Mənə elə gəlir ki, geyimlərin rəngi ikinci dərəcəli mövzudur. Əgər Hiss Səmra qədər performansına fikir versəydi, rəqs etməyə cəhd etsəydi, orada geyimlərin rəngi, qısalığı arxa planda qalacaqdı. Mən deyərdim ki, Hiss səhnə müğənnisi deyil. Studiya müğənnisidir. Ona görə özünü radioda, kliplərdə təqdim etməlidir. Böyük səhnədə aura və enerjisi kifayət etmir. Səhnədə ən çox performans göstərən ifaçılardan biri Səmradır".




# Azərbaycanda daha hansı bank bağlana bilər? - AÇIQLAMA

***""Günay Bank"ın məcmu kapitalla bağlı probleminin olub-olmaması özü mübahisəli məsələdir. Ona görə ki, Azərbaycan Mərkəzi Bankı ötən il orada yoxlama aparıb və indiyə qədər həmin yoxlamanın nəticəsini banka təqdim etməyib".***

Bunu "Unikal"a açıqlamasında iqtisadçı-ekspert Əkrəm Həsənov deyib. Onun sözlərinə görə, kimin doğurdan da kapitala riayət edib, etmədiyi bilinmir:

"Yəni, Mərkəzi Bankın bu sahədəki nəzarəti çox bərbaddır. Bu da onu göstərir ki, Mərkəzi Bank istənilən banka eyni tələbi irəli sürə bilər. Ötən həftə "Günay Bank" elan verib ki, 5 iyulda səhmdarların ümumi yığıncağını keçirəcək və gündəlikdəki məsələ kapitalın artırılması ilə bağlıdır. Bu barədə Mərkəzi Banka da məlumat verilib. Əgər problem kapitaldırsa, bank bunu nəinki artırmağa hazır idi, artıq buna başlamışdı. Əgər səni doğurdan da kapital narahat edirsə, imkan verərdin artırardılar. Bu onu deməyə əsas verir ki, əsl məqsəd kapital məsələsi deyil. Məqsəd iri bankların işinə yaramaq və bank sektorunu inhisarlaşdırmaqdır. Bu baxımdan, 4-5 bankdan başqa hamısı təhlükə altındadır. İstənilən vaxt onları belə bir bəhanə ilə bağlaya bilərlər. "Günay Bank"ın digər banklardan fərqli olaraq ciddi problemi olmayıb. Nə məhkəmə işi, nə də problemli krediti var idi. O biri banklarda isə belə problemlər çoxdur. Məqsəd Azərbaycanda bankların sayını azaltmaqdır".

Başqa hansısa bankın lisenziyasının ləğv oluna biləcəyi ehtimalına gəlincə, ekspert bildirib ki, maliyyə vəziyyəti bir qədər pis olan "Muğanbank"dır: "Bu da o demək deyil ki, həmin bankı bağlamaq lazımdır. Banka şans vermək lazımdır. Bağlamaqla iş bitmir. Digərlərində elə ciddi problem yoxdur".

Qeyd edək ki, ötən gün AMB məcmu kapitalının miqdarının banklar üçün müəyyən edilmiş minimum miqdarından az olduğuna, məcmu kapitalının adekvatlıq əmsalının 3 faizdən az olmasına, habelə cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiyinə görə, "Günay Bank"ın lisenziyasını 17 may 2023-cü il tarixindən etibarən ləğv etdiyini və bankın müflisləşmə yolu ilə ləğv edilməsi barədə məhkəməyə müraciət olunduğunu açıqlayıb.

***Anar Kəlbiyev***

# Büdcə layihəsi parlamentə daxil olub



***"Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi Milli Məclisə daxil olub.***

Layihənin gələn həftə parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirəyə çıxarılması gözlənilir.

Qeyd edək ki, "Büdcə sistemi haqqında" qanuna əsasən, dövlət büdcəsinin icrası barədə illik hesabat və müvafiq qanun layihəsi təsdiq olunmaq üçün növbəti ilin may ayının 15-dən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunur.

Hesabat özündə digər məlumatlarla yanaşı bütün dövlət borcları, il ərzində götürülən dövlət borcları, o cümlədən buraxılmış dövlət qiymətli kağızları və verilən dövlət zəmanətləri və dövlət büdcəsinin Ehtiyat Fondunun, Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondunun vəsaitlərindən il ərzində istifadə, məqsədli büdcə fondlarının və yerli gəlirlərin vergi və digər ödəniş növləri üzrə icrası haqqında məlumatları da əks etdirir.

# Ziya Məmmədovun səhiyyədəki adamı ittiham hədəfində

## Ucar Mərkəzi Rayon Xəstəxanası ilə bağlı tənqidlər səngimir

***Son günlər Ucar Mərkəzi Rayon Xəstəxanası ilə bağlı ittihamların ardı-arası kəsilmir. Sonuncu belə iddia isə bir neçə gün öncə irəli sürülüb.***

Həmin iddiaya görə, rayonun Bağman kənd sakini, 23 yaşlı Əliyev Kamil Vüqar oğlunu 9 may 2023-cü il tarixdə, saat 21 radələrində avtomobil vurub. Yaralı gənc dərhal Ucar Mərkəzi Rayon Xəstəxanasına çatdırılıb. Bir neçə rayon sakininin imzası ilə yerli KİV-ə ünvanlanan müraciətdə orada heç bir tibbi yardım göstərilmədiyi iddia olunub: "3 saatdan sonra deyiblər ki, yaralı ölüb, götürün aparın. Yaxınları Kamil Əliyevi evə gətirirlər. Bir saatdan sonra o özünə gəlir, ayılır. Yaxınları onu dərhal avtomobillə Kürdəmir Mərkəzi Rayon Xəstəxanasına çatdırırlar. Orada həkimlər müayinə edib deyirlər ki, Kamil 10 dəqiqə əvvəl dünyasını dəyişib bunu niyə vaxtında xəstəxanaya gətirməmisiniz. Kamil ailənin yeganə oğlu idi. Allah rəhmət eləsin! Ucar Mərkəzi Rayon Xəstəxanasında savadlı həkimlər olsaydı, Kamil indi yaşayırdı".



Maraqlıdır ki, bu ağır ittihamla bağlı hələlik adıçəkilən xəstəxananın rəhbərliyi tərəfindən münasibət bildirilməyib.

Onu da qeyd edək ki, Ucar Mərkəzi Rayon Xəstəxanası (publik hüquqi şəxs kimi fəaliyyət göstərir) ilə bağlı son zamanlar artan şikayətlərin, tənqidlərin bir çoxunda bu tibb ocağının vətəndaşlara keyfiyyətli xidmət göstərmək imkanlarından məhrum olduğu vurğulanır. Eyni zamanda xəstələrdən rüşvət alındığına işarə edilir.

Məlumatlara görə, xəstəxananın direktoru Zeynal Bayramlı sabiq nəqliyyat naziri Ziya Məmmədova yaxın şəxsdir. Belə ki, o, eks-nazir tərəfindən 2005-ci ildə Ziya müəllimin doğma kəndi Qazıqumlaqda poliklinikaya baş həkim təyin edilib. Cəmi iki il sonra, 2007-ci ildə isə Ucar Mərkəzi Rayon Xəstəxanasının baş həkimi vəzifəsinə gətirilib. Xəstəxana publik hüquqi şəxsə çevrildikdən sonra direktor təyin olunub.

Daha bir ilginc məqam ondan ibarətdir ki, Z.Bayramlının rəhbərliyi dövründə sözügedən tibb müəssisəsində bir neçə dəfə yoxlama aparılıb və ortaya ciddi nöqsanlar çıxıb. Məsələn, 2014-2015-ci illərdə və 2016-cı ilin yanvar-may aylarında Ucar Mərkəzi Rayon Xəstəxanasına ayrılmış vəsaitlərin proqnozlaşdırılması və icrası vəziyyəti ilə bağlı Hesablama Palatası tərəfindən həyata keçirilmiş auditin nəticəsinə dair hesabatdan məlum olub ki, müxtəlif illərdə bu səhiyyə ocağı tərəfindən alınmış bəzi inventarlar anbarda uzun müddət istifadəsiz saxlanılmaqla səmərəsiz xərclərə yol verilib, imtiyazlı xəstələrə dərman, sarğı ləvazimatları və materiallarının paylanması zamanı mövcud normativ aktların tələblərinə tam əməl edilməyib, bununla yanaşı, xəstə sayının çox yazılması nəticəsində artıq ərzaq və dərman xərcinə yol verilib. Və ya: 2015-ci ilin oktyabrından istifadəyə verilməsinə baxmayaraq auditlə əhatə olunan dövrün sonunadək yeni xəstəxananın tikintisinə sərf olunmuş kapital qoyuluşu və verilmiş inventar, avadanlıq və digər mal-materialların müvafiq qaydada balansa daxil edilməsi üçün zəruri tədbirlər görülməyib.

Bunda başqa, auditlə əhatə olunan dövrdə ümumilikdə 32 satınalma proseduru keçirilib və müqavilələr bağlanıb, keçirilmiş satınalma prosedurları zamanı alınması protokollaşdırılmış malların müqavilə qiymətlərindən baha alınması nəticəsində artıq vəsait ödənilib.

Audit nəticəsində aşkarlanan bu və digər nöqsanlarla bağlı həmin vaxt Səhiyyə Nazirliyinə və Ucar rayon İcra Hakimiyyətinə məlumat göndərilib. Lakin...

Lakin xəstəxananın fəaliyyətində nöqsanlar bitməyib, onun işindən narazılıqlar davam edib. Məsələn, 2022-ci ildə xəstəxananın qarşısında intihara cəhd baş verib. Belə ki, rayon sakini üzləşdiyi problemlə bağlı özünü yandırmağa cəhd edib. Onun bu cəhdinin qarşısı həmin ərazidə xidmət aparan Ucar Rayon Polis Şöbəsinin (RPŞ) PPXB-nin əməkdaşları tərəfindən alınıb. Elə həmin il bir qrup rayon sakini ölkə rəhbərliyinə ünvanladığı müraciətdə xəstəxana rəhbərliyini korrupsiyada günahlandırıb, direktorun çoxsaylı bahalı əmlaklara (Bakıda, Ağ şəhər ərazisində mənzil, Novxanıda dəbdəbəli bağ evi və s.) malik olduğunu iddia ediblər. Həmin iddialara da Z.Bayramlı və Ucar Mərkəzi Rayon Xəstəxanasının məsul şəxsləri tərəfindən münasibət bildirilməyib.

Ehtimallar o yöndədir ki, barəsində bu qədər ittiham, tənqid, şikayət olduğu halda adıçəkilən tibb müəssisəsinin rəhbərliyində hər hansı dəyişikliyin baş verməməsi xəstəxana direktorunun sabiq nəqliyyat naziri Ziya Məmmədova yaxın şəxs (hətta bəzi iddialara görə, qohum) olması ilə əlaqədardır.

***Toğrul Əliyev***

# Tərəflərin növbəti Rusiya görüşü: Nəticə olacaq, yoxsa...

## Rəsmi Moskvanın bu regiondakı imperialist siyasəti göz önündədir, ona görə də danışıqlarda nəticəyə ümid azdır

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan mayın 25-də Moskvada görüşəcəklər. Bu görüş Rusiya lideri Vladimir Putinin vasitəçiliyi ilə baş tutacaq.***

Mayın 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasına işgüzar səfərə yola düşüb. Bu barədə Xarici İşlər Nazirliyindən məlumat verilib. Səfər çərçivəsində mayın 19-da Azərbaycanla Ermənistan arasında "sülh sazişi" layihəsi üzrə danışıqların növbəti raundunun keçirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, hər iki ölkə lideri iyunun 1-də Avropa siyasi ictimaiyyətinin ikinci sammiti çərçivəsində Fransa prezidenti və Almaniya kanslerinin iştirakı ilə beştərəfli formatda görüşəcəklər. Daha bir beştərəfli görüşün oktyabrda Qranadada keçirilməsi planlaşdırılır. Brüsseldə növbəti üçtərəfli görüş isə iyulda keçiriləcək.

Bir məqamı da qeyd edək ki, Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin növbəti iclasında çıxışı zamanı deyib ki, mayın 14-də Aİ Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Brüsseldə Azərbaycan prezidenti arasında görüş baş tutdu. Həmin görüşdə daha bir addım atıldı və görüşün yekunlarına dair bəyanatda deyildiyi kimi qeyd edildi ki, Azərbaycan Ermənistanın 29,8 min kvadratkilometr ərazisinin, Ermənistan isə Azərbaycanın 86,6 min kvadrat kilometrinin ərazi bütövlüyünü tanıyır. O, bunu regionda sabitliyin və sülhün bərqərar olması baxımından mühüm addım hesab edib: "Qeyd etməliyəm ki, mən bunu regionda sabitliyin və sülhün bərqərar olması, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin mətninin yekunlaşdırılması və həmçinin sərhədlərin delimitasiyası baxımından mühüm addım hesab edirəm. Amma təbii ki, növbəti addım delimitasiya üçün hüquqi qüvvəyə və əhəmiyyətə malik konkret əsasların müəyyən edilməsi və razılaşdırılması olmalıdır".

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən politoloq Qabil Hüseynli sabah XİN rəhbərləri arasında keçiriləcək görüşün mümkün nəticələrindən danışıb: "Rusiya illərdir regionda "parçala, hökm sür" siyasətini həyata keçirir. Hər zaman öz strateji maraqlarının arxasınca gedib. İkinci Qarabağ müharibəsindən sonra da onlar belə etdilər. Qarabağa öz sülhməramlı kontingentini yerləşdirməklə əslində sülh prosesinin qarşısına böyük bir daş qoymuş oldular. Ruslar hazırda bölgədə qızışdırıcı rol oynayırlar. Onların Moskvadakı rəislərinin də sülh yaradacağına inanmaqda çətinlik çəkirəm. Rusiyanın sülh yaratması arabanın 5-ci təkəri kimi bir şeydir. İmkan verməlidirlər ki, iki xalq arasında anlaşma baş tutsun, amma onlar Qarabağın dağlıq hissəsində yaşayan erməniləri bizim əleyhimizə qızışdırırlar və onlara silah-sursat verirlər. Bir sözlə, Rusiyanın bu regiondakı işğalçı və imperialist siyasəti göz önündədir. Ona görə də bundan sonra da Rusiyaya güvən olacağına ümidim yoxdur. Azərbaycan bölgədə rusyanın təsirinin azalması uğrunda mübarizə aparmalıdır", - deyə o qeyd edib.

Q. Hüseynli bildirib ki, son günlər sərhəddə qeydə alınan toqquşmalar hansısa formada Rusiyanın təsiri ilə baş verib: "Misal üçün, Zod qızıl mədənlərinin istismarçısı Rusiya şirkətidir. Oradan Rusiya hər il böyük məbləğdə gəlir götürür. Hərbi toqquşmaların Zod istiqamətində olmasının Rusiyanın təsiri ilə baş verdiyini ehtimal etmək olar. Əlbəttə ki, ermənilər də süddən çıxmış "ağ mələk" deyillər. Erməni xalqı hər zaman onun-bunun, əsas da Rusiyanın əlində alət olub və bu gün də alət olmağa davam edir. Onların qanında türklərə qarşı böyük nifrət var. Buna baxmayaraq, sülh müqaviləsini imzalamağa məcburdurlar, çünki başlarının üzərində "Dəmir Yumruq" var. Mənim zənnimcə, sülh prosesinin Brüssel variantı daha uğurludur. Orada bir-birinə əks olan mövqelərin yaxınlaşdırılması istiqamətində ciddi səylər göstərilir".

Politoloq Elxan Şahinoğlu isə hesab edir ki, Rusiya prezidenti Vladimir Putin Azərbaycan və Ermənistan arasında gələcək sülh sazişinin Moskvada imzalanmasını istəyir. Onun sözlərinə görə, Azərbaycan və Ermənistan rəhbərlərinin Brüsseldə bəzi məsələlərdə razılığa gəlməsi Kreml sahibini ciddi narahat edir. "Rusiya prezidenti Vladimir Putin mayın 25-də nədən Moskvada Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirməyə ehtiyac duyub? Kreml vasitəçilikdə Brüssel və Vaşinqtondan geri qalmaq istəmir. İlham Əliyevlə Nikol Paşinyan arasında Brüsseldə bir neçə məsələylə bağlı şifahi razılaşma əldə edilib. Bu, Kremli narahat edir. Putin iki ölkə arasında gələcək sülh sazişinin Moskvada imzalanmasını istəyir. Bunun il ərzində reallaşması mümkündür, ancaq Kreml iki ildən sonra sülhməramlı kontingentini Qarabağdan çıxaracağı ilə bağlı Bakıya təminat verməlidir", -deyə politoloq bildirib.

Siyasi şərhçi Nəsimi Məmmədli isə deyib ki, həm Brüssel, həm Vaşinqton, eyni zamanda Moskva, Soçi və digər bu tipli görüşlərdə müəyyən irəliləyişlər olub, amma təməl məsələlərlə bağlı razılıq elə də asan deyil: "Ona görə də sülh prosesi yubanır. Azərbaycan nə ABŞ-ın, nə Avropa İttifaqının, nə də Rusiyanın vasitəçilik missiyasından imtina etməlidir. Çünki biz mövcud şəraitdə ən güclü olan və mövqeyi tam aydınlaşmış bir tərəfik. Ona görə də danışıqlar formatının hər hansı birindən kənarda qalmaq Azərbaycan üçün əlverişli deyil. Əksinə, Azərbaycanın hər bir formatda iştirak edib öz mövqeyini ifadə etməsi doğrudur".

Politoloq düşünür ki, sülh prosesinin yubanması təkcə ABŞ-ın, Avropa İttifaqının və yaxud Rusiyanın vasitəçilikləri ilə bağlı deyil: "Bu, Ermənistan cəmiyyətinin hələlik sülhə hazır olmaması və Azərbaycanla bağlı iddialarını tam şəkildə aydınlaşdırmaması ilə bağlıdır. Xüsusilə də Ermənistanda sülhə mane olmaq arzusunda olan revanşist qüvvələr var, eləcə də erməni diasporu var ki, onlar da sülh məsələsindən uzaqdadır. Yaxud erməni kilsəsini misal göstərə bilərik ki, onlar da bu istiqamətdə çox fəaldır".

Siyasi təhlilçi diqqətə çatdırıb ki, bu amillərin özü Paşinyan hökumətini ehtiyatlı davranmağa vadar edir: "Onlar düşünür ki, nə qədər ki, Rusiya-Ukrayna müharibəsinin nəticəsi bəlli deyil, eyni zamanda Cənubi Qafqazın özündə, Türkiyədə müəyyən aydınlaşma prosesini tərəflər nəzərə alır. Məncə, sülh prosesinin yubanması bu amillərlə bağlıdır".



Başqa bir məqama da diqqət yetirsək görərik ki, Ermənistan sülh danışıqlarının davam etdiyi məqamda təxribatçı fəaliyyətindən də geri qalmır. Belə ki, mayın 18-i saat 07:15 radələrində Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən bir neçə mövqeyinə qarşı Ermənistan silahlı qüvvələri tərəfindən döyüş PUA-ları tətbiq edilib.

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. Əraziyə baxış keçirilərkən ermənilərin PUA-lar vasitəsilə atdığı kustar üsulla hazırlanmış əldəqayırma mərmilərin qalıqları aşkar edilib. Azərbaycan Ordusunun bölmələri itki verməyib, cavab tədbirləri görülür. "Bildirilir ki, bölgədə yaranan gərginliyə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür", - deyə məlumatda qeyd olunub.

Bu barədə fikirlərini bildirən hərbi ekspert Azay Kərimov deyib ki, Ermənistanın mayın 18-i Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən bir neçə mövqeyinə qarşı döyüş PUA-ları tətbiq etməklə sülh danışıqlarını əngəlləməyə çalışır. Onun sözlərinə görə, Ermənistana PUA-ları Fransa və İran verir. "Ermənistanın dronları yox idi, Ermənistan bu dronları haradan alıb, onlara kim verib dronları? Əlbəttə aydın məsələdir. İran və Fransa... Məlumdur ki, bir neçə gün öncə Brüsseldə danışıqlar oldu, müxtəlif razılaşmalar əldə olundu. Lakin Ermənistan həmişəki kimi öz xislətini göstərir, danışıqlar prosesini pozmaq məqsədilə təxribatlar törədirlər", - deyə o qeyd edib. A.Kərimov onu da vurğulayıb ki, Ermənistan hər zaman bu cür ziddiyyətli addımlar atır. "Ermənistan danışıqlara gedir, lakin sonradan xarici qüvvələrin dəstəyi ilə regionda sabitliyi pozmağa, sülh danışıqlarını əngəlləməyə çalışırlar", - deyə o əlavə edib.

***M.İbrahimli***

# Prezident bu sazişləri təsdiqləri



***"Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" 2023-cü il fevralın 23-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Qanunu imzalayıb.

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında" 2023-cü il fevralın 24-də Daşkənd şəhərində imzalanmış Saziş təsdiq edilib.

Prezident İlham Əliyev bununla bağlı müvafiq Qanunu imzalayıb.

# Ombudsmandan Dövlət Departamentinin hesabatına reaksiya



***Ombudsman Səbinə Əliyeva ABŞ Dövlət Departamentinin illik hesabatında əks olunmuş məsələlərə münasibət bildirib.***

Ombudsman Aparatından "Unikal"a daxil olan məlumatda deyilir ki, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən tutulmuş və ya həbs edilmiş şəxslərin Ombudsmana ünvanlanan təklifləri, ərizələri və şikayətləri təxirə salınmadan, senzuradan keçirilmədən aidiyyəti üzrə göndərilir. Ombudsman bu məsələni hər zaman diqqətdə saxlayır və saxlanılan şəxslərin senzurasız yazışmalarını daim monitorinq edir.

Həmçinin bildirilir ki, vəkillərin müdafiə etdikləri şəxslərlə görüşlərinə maneə yaradılması ehtimalı ilə bağlı müraciətləri bütün hallarda təmin olunub.

"Qeyd olunanları nəzərə alaraq, qısa şəkildə əsaslandırılmış məlumatları təqdim etməklə, ABŞ Dövlət Departamentinin hesabatında Ombudsmanın fəaliyyəti ilə bağlı yer alan qeydlərin əsassız olduğunu, hər hansı bir problemin həllinə xidmət etmədiyini bildiririk", - məlumatda deyilir.

# Kamran Əliyev bu məsələlərlə bağlı tapşırıq verdi

***Baş prokuror Kamran Əliyev Yevlaxda bu rayonun, eləcə də Bərdə, Tərtər, Goranboy, Xocalı rayon, Mingəçevir və Naftalan şəhər sakinləri həmçinin, digər bölgələrdən olan vətəndaşları qəbul edib.***

"Unikal" xəbər verir ki, qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzindəki abidəsini ziyarət edib.

Qəbulda iştirak edən 81 nəfər vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi ilə bağlı, mülki xarakterli mübahisələrlə əlaqədar və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra Baş prokuror əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyəti daşıdıqlarını diqqətə çatdırıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# İlham Əliyev: "Ermənilər mülki şəxslərimizə qarşı ballistik raketlər atıb"

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi xanım Njupuo Yap Mariatunu qəbul edib.***



"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev Njupuo Yap Mariatunun Azərbaycana səfərinin ölkəmizin Beynəlxalq Mülki Müdafiə Təşkilatı ilə əməkdaşlığının genişlənməsi işinə töhfə verdiyini və əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaratdığını qeyd etdi.

Njupuo Yap Mariatu ilk növbədə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Fövqəladə Hallar Nazirliyinin təşkil etdiyi əməliyyat-taktiki təlimdə fəxri qonaq qismində iştirak etməkdən məmnunluğunu bildirdi.

Heydər Əliyevin görkəmli dövlət xadimi və siyasətçi olduğunu vurğulayan Mülki Müdafiə Təşkilatının Baş katibi Prezident İlham Əliyevin ölkədə sabitliyin və dinamik inkişafın təmin edilməsi ilə onun siyasətini uğurla davam etdirdiyini bildirdi. Dövlətimizin başçısının regionda davamlı sülhün və sabitliyin təmin olunması istiqamətində fəaliyyətini yüksək qiymətləndirdiklərini deyən qonaq qeyd etdi ki, bu, Prezident İlham Əliyevin ölkəmiz və region üçün verdiyi dəyərli töhfədir. Njupuo Yap Mariatu Azərbaycanın Türkiyədə baş verən zəlzələ zamanı göstərdiyi köməyin təşkilat tərəfindən yüksək dəyərləndirildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı Türkiyənin Kahramanmaraş şəhərində Azərbaycan tərəfindən 1000 evin tikintisi ilə bağlı məlumat verdi.

Qonaq qeyd etdi ki, Azərbaycan 1993-cü ildən Beynəlxalq Mülki Müdafiə Təşkilatının üzvü olaraq mülki müdafiə ilə bağlı məsələlərin təşviqi məqsədi daşıyan təşəbbüslərdə fəal iştirak edən ölkələrdən biridir və təşkilatın potensialının gücləndirilməsi proqramları çərçivəsində əməkdaşlığa töhfə verir. Njupuo Yap Mariatu Baş Assambleyanın 2022-ci ildə keçirilmiş sonuncu sessiyasında Azərbaycanın yenidən 4 il müddətinə İcraiyyə Şurasının üzvü seçilməsini məmnunluqla vurğuladı.

O, səfərinin əməkdaşlığımızın daha da inkişaf etməsinə və güclənməsinə təkan verəcəyinə əminliyini bildirdi.

Dövlətimizin başçısı Vətən müharibəsi dövründə ermənilər tərəfindən mülki şəxslərimizə qarşı ballistik raketlərin atıldığını, dinc sakinlərimizin qətlə yetirildiyini, eyni zamanda, energetika obyektlərimizə də hücumların olduğunu qeyd etdi. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı yenidənqurma işləri barədə məlumat verdi.

Dövlətimizin başçısı COVID-19 pandemiyası zamanı ölkəmizin Ümumdünya Səhiyyə Təşkilatına göstərdiyi dəstəyi xatırladı, bunu Azərbaycanın beynəlxalq təşəbbüslərdə fəal iştirak etməsinin daha bir nümunəsi olduğunu dedi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Afrika ölkələri ilə sıx əməkdaşlıq əlaqələri qurduğunu qeyd etdi.

Söhbət zamanı iqlim dəyişiklələri barədə fikir mübadiləsi aparıldı.

Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# Buraxılış imtahanlarının nəticələri açıqlandı - Bir nəfər 300 bal topladı

***Umumi (9 illik) orta təhsil səviyyəsi üzrə aprelin 30-da keçirilən buraxılış imtahanlarının nəticələri elan olunub.***

"Unikal" xəbər verir ki, imtahanda iştirak edən 9-cu sinif şagirdləri verilmiş keçidə (https://eservice-es.dim.gov.az/2023/netorta/) daxil olaraq iş nömrəsi və şəxsiyyəti təsdiq edən sənədin nömrəsindən (və ya FİN kodundan) istifadə etməklə öz imtahan nəticələri, cavab vərəqinin qrafik təsviri ilə tanış ola bilərlər.

İmtahan iştirakçıları iş nömrələrini buradan öyrənə bilərlər.

Şagirdlər imtahan nəticələri haqqında məlumatı (hər fənn üzrə ümumi balı) mobil operatorlar (Azercell, Bakcell, Nar, Naxtel) vasitəsilə bu imtahan üçün nəzərdə tutulan buraxılış vərəqəsində göstərilən kodu 7727 nömrəsinə göndərməklə də öyrənə bilərlər.

Yazı işlərinin (açıq tipli tapşırıqların cavabları) yoxlanılması prosesi onlayn şəkildə həyata keçirilib. Belə ki, hər marker yoxlama prosesinə öz evindən qoşularaq proqramın onun kompüterinə təsadüfi göndərdiyi işləri yoxlayıb. Qeyd edək ki, onlayn (evdən) yoxlama prosesində üztanıma texnologiyası tətbiq edilib və yoxlama prosesinin bütün tələblərinə (meyarların təkmilləşdirilməsi, işlərin şifrələnməsi, markerlərin hər tapşırıq üzrə yoxlamadan əvvəl kalibrləmədə iştirak etməsi, yoxlama ərzində "seeding" (markerlərə sayıqlığı itirməmək üçün əvvəlcədən hazırlanan və kalibrə edilən sualların mütəmadi olaraq göndərilməsi) prosesinin tətbiqi, işlərin markerlərə proqram tərəfindən təsadüfi göndərilməsi, imtahan protokollarının araşdırılması və s.) əməl olunub.

Yazı işlərinin onlayn (evdən) yoxlanılması üçün proqram təminatı Dövlət İmtahan Mərkəzinin mütəxəssisləri tərəfindən hazırlanıb.

Bu imtahanlarda iştirakı nəzərdə tutulan 48 065 nəfərdən 373 nəfər imtahana gəlməyib. Tələb olunan imtahan qaydalarını pozduğu üçün 9 nəfərin nəticəsi ləğv olunub.



İmtahan iştirakçıları arasında 1 nəfər - Naxçıvan Qarnizonunun tam orta məktəbinin şagirdi maksimal olan 300 bal toplamaqla ən yüksək nəticəni göstərib.

# Bu il Azərbaycanda 4 mindən çox iş yeri bağlanıb - Rəsmi



***2023-cü ilin birinci rübü ərzində ölkədə 4,2 min iş yeri bağlanıb.***

Bu barədə Dövlət Statistika Komitəsindən (DSK) məlumat verilib. Bildirilib ki, bu dövrdə bağlanmış iş yerlərinin 46,3 faizi qeyri-dövlət sektorunun payına düşüb.

İş yerlərinin 58,0 faizi müəssisə və təşkilatların fəaliyyətlərinin dayandırılması, 42,0 faizi isə fəaliyyət göstərən müəssisə və təşkilatlarda aparılan ixtisarlar ilə əlaqədar bağlanıb.

# Spiker Xorvatiya parlamentinin sədr müavini ilə görüşdü

***Mayın 18-də Milli Məclisin sədri Sahibə Qafarova parlamentin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirak etmək üçün Azərbaycanda səfərdə olan Xorvatiya Respublikası Parlamentinin sədr müavini Davorko Vidoviç ilə görüşüb.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı Milli Məclisdə salamlamaqdan məmnunluğunu bildirən spiker Sahibə Qafarova dəvəti qəbul edib səfərə gəldiyinə və xüsusi iclasda iştirak etdiyinə görə Davorko Vidoviçə təşəkkürünü bildirib.



O, müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin misilsiz xidmətləri barədə danışaraq deyib ki, Ulu Öndər Heydər Əliyev görkəmli dövlət xadimi və siyasi xadim olmaqla yanaşı, xalqının taleyini dəyişdirən böyük lider, əvəzolunmaz şəxsiyyətdir. Heydər Əliyev erası Azərbaycanda quruculuq, inkişaf, sabitlik, tərəqqi və müstəqillik dövrü kimi xarakterizə olunur.

Görüşdə bildirilib ki, Azərbaycan və Xorvatiya dost ölkələrdir. Ölkələrimizi strateji tərəfdaşlıq münasibətləri birləşdirir. Qarşılıqlı səfərlər münasibətlərimizin daha da inkişafına xidmət edir. Bu mənada dövlət başçıları səviyyəsində həyata keçirilən səfərlərin və görüşlərin xüsusi əhəmiyyəti qeyd olunub.

Ölkələrimiz arasında münasibətlərin inkişafında parlamentlərin də rolu qeyd edilərək, bildirilib ki, hər iki ölkənin qanunverici orqanlarında dostluq qrupları fəaliyyət göstərir. Parlamentarilərimiz arasında təmasların artması münasibətlərin daha da dərinləşməsinə töhfə verə bilər.

Milli Məclisin sədri Sahibə Qafarova regionda baş verən hadisələr, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri barədə də məlumat verib.

Xorvatiya Parlamentinin sədr müavini səfərə dəvətə və göstərilən yüksək səviyyəli qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. Dost Azərbaycanda olmaqdan məmnun olduqlarını deyən Davorko Vidoviç, ölkəsinin Azərbaycanla əməkdaşlığın inkişafında maraqlı olduğunu vurğulayıb. O, ölkəmizə səfəri çərçivəsində Xarici İşlər və İqtisadiyyat Nazirliklərində görüşlər keçirdiyini, ictimai xidmətlər sektorunda Azərbaycan brendi olan ASAN Xidmətlə tanış olduğunu, Ermənistanın işğalından azad olunmuş Ağdama səfər etdiyini bildirib və təəssüratlarını bölüşüb. Qonaq deyib ki, Xorvatiya minalardan əziyyət çəkən ölkə kimi minatəmizləmə sahəsində təcrübəyə malikdir.

Görüşdə Azərbaycanla Xorvatiya arasında müxtəlif sahələrdə əlaqələrin inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Vilayət Eyvazov 19-u Vətən müharibəsi iştirakçısını polisə götürdü

***Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 17-18-də Salyan Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.***



DİN-in mətbuat xidmətindən "Unikal"a verilən xəbərə görə, nazir əvvəlcə Salyan şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Hacıqabul, Kürdəmir, Salyan, Şirvan şəhər və rayonlarından qəbula gələn 153 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. 19-u Vətən müharibəsi iştirakçısı olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 72 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# Mərkəzi Bank daha bir lisenziyanı ləğv etdi




***Azərbaycan Mərkəzi Bankı (AMB) "Union Kredit" MMC bank olmayan kredit təşkilatının (BOKT) lisenziyasını ləğv edib.***

"Unikal" xəbər verir ki, bu barədə bankın saytında bildirilib.

Bununla da ölkədə BOKT-ların sayı 55-dən 54-ə düşüb. Qeyd edək ki, Union Kredit" 2011-ci ildə təsis edilib.

# DİM: "50 mindən çox abituriyent imtahan verəcək"

***Dövlət İmtahan Mərkəzi tərəfindən mayın 20-də III ixtisas qrupu, mayın 21-də isə II ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçiriləcək.***

Bu barədə "Unikal"a DİM-dən məlumat verilib. Bildirilib ki, mayın 21-də III ixtisas qrupu üzrə DT və TC altqruplarının hər ikisini seçən abituriyentlər üçün coğrafiya fənni üzrə də imtahan keçiriləcək. İmtahanlar Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Ağstafa, Sumqayıt, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Kürdəmir, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Masallı və Xaçmazda təşkil olunacaq.

İştirakçılar mayın 15-dən etibarən Dövlət İmtahan Mərkəzinin saytında "İmtahana buraxılış vərəqəsi"ni çap edə bilirlər. "İmtahana buraxılış vərəqəsi"ndə imtahanın keçiriləcəyi tarix, şəhər (rayon), bina, zal, başlanma vaxtı və abituriyentin imtahan binasına gəlmə vaxtı və s. məlumatlar qeyd olunub.

Abituriyentlərin bir daha nəzərinə çatdırırıq ki, imtahan saat 11:00-da başlanır İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 10:45-də buraxılış rejimi başa çatır və bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

Kütləviliyin qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır.



Abituriyentlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

- İmtahana buraxılış vərəqəsi;
- Şəxsiyyəti təsdiq edən sənədin əsli.

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 206 imtahan binası, 3738 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 206 ümumi imtahan rəhbəri, 609 imtahan rəhbəri, 4673 nəzarətçi-müəllim, 635 buraxılış rejimi əməkdaşı, 206 bina nümayəndəsi ayrılıb.

Mayın 20-də III ixtisas qrupu üzrə keçiriləcək imtahanda 22146, mayın 21-də II ixtisas qrupu (o cümlədən III ixtisas qrupu üzrə DT və TC altqruplarının hər ikisini seçən abituriyentlər üçün coğrafiya fənni imtahanı) üzrə keçiriləcək imtahanda isə 28344 nəfər olmaqla, ümumilikdə 50490 abituriyentin iştirakı nəzərdə tutulur.

İmtahanların gedişini işıqlandırmaq üçün 56 KİV nümayəndəsi DİM-də akkreditasiyadan keçib.

# "Məşədi Dadaş" məscidinə qadın dini ayinlərin icraçısı təyin edildi

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Bakı şəhəri, Nəsimi rayonu "Məşədi Dadaş" məscidinə qadın dini ayinlərin icraçısı təyin edib.***

Komitədən verilən xəbərə görə, Dövlət Komitəsi sədrinin əmri ilə bu vəzifəyə Elnarə Orucova təyinat alıb. E.Orucova İslam dininə aid ibadət yerlərinə qadın dini ayinlərin icraçısı vəzifəsini tutmaq üçün Dövlət Komitəsinin cari ilin 13-15 fevral tarixlərində təşkil etdiyi müsahibədən yüksək bal toplayaraq uğurla keçib.

E.Orucova Bakı İslam Universitetində bakalavr təhsili alıb, 2022-ci ildə Azərbaycan İlahiyyat İnstitutunun magistratura pilləsini bitirib. Din sosiologiyası üzrə təhsil alan E.Orucovanın magistr işi "Din və modernizasiya münasibətləri: sosioloji təhlil" mövzusunda olub.

Qeyd edək ki, bununla da Dövlət Komitəsi tərəfindən təyinat almış qadın dini ayinlərin icraçılarının sayı 17 nəfərə çatıb.

# Qubada zəlzələ oldu

***Qubada zəlzələ olub. Bu barədə "Unikal"a Respublika Seysmoloji Xidmət Mərkəzindən xəbər verilib.***

Zəlzələlərin tədqiqatı bürosunun məlumatına əsasən, yerli vaxtla saat 15:28-də Xınalıq stansiyasından 14 km şərqdə, Quba rayonunda zəlzələ qeydə alınıb. Zəlzələnin maqnitudası 3.3, dərinliyi 44 km olub. Zəlzələ hiss olunmayıb.



# Deputatlar Lüksemburqa gedirlər

***NATO Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov və nümayəndə heyətinin üzvləri - parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, deputatlar Məlahət İbrahimqızı, Kamran Bayramov və Elşən Musayev bu qurumun yaz sessiyasında iştirak etmək üçün mayın 19-da Lüksemburq Böyük Hersoqluğunun paytaxtı Lüksemburq şəhərinə səfər edəcəklər.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən xəbərə görə, NATO PA-nın yaz sessiyasında transatlantik iqtisadi münasibətlərin və dayanıqlığın yenidən qurulması, ərzaq təhlükəsizliyi və münaqişələr, NATO-nun açıq qapı siyasətinin gələcəyi və digər mövzularda məruzələr dinləniləcək, müvafiq qərarlar qəbul ediləcək.

Səfər mayın 23-də başa çatacaq.

## "Sülh müqaviləsinin tezliklə imzalanacağına ümid edirik" - KTMT-nin baş katibi

***Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin tezliklə imzalanacağına ümid edir.***



”Unikal” xarici KİV-ə istinadən xəbər verir ki, bunu KTMT-nin baş katibi İmanqali Tasmaqambetov jurnalistlərə açıqlamasında deyib. Onun sözlərinə görə, Cənubi Qafqazdakı vəziyyətlə bağlı mütəmadi danışıqlar aparılır.

”Məmuniyyətlə qeyd olunub ki, həm Azərbaycan, həm də Ermənistan 1991-ci il Alma-Ata Bəyannaməsinə əsasən iki ölkə arasındakı sərhədləri praktiki olaraq tanıyır. Ümid edirik ki, bu danışıqlar sülh müqaviləsinin imzalanmasına gətirib çıxaracaq. Daha sonra ölkələr sərhədin delimitasiyasına başlayacaq”, - deyə İmanqali Tasmaqambetov əlavə edib.

***Gülayə Mecid***

# “Bank sektorunda ciddi rəqabətsizlik mühiti var”

## Natiq Cəfərli: “Banklar demək olar ki, eyni təkliflərlə çıxış edirlər və rəqabətsizlik mühitinin olması, Mərkəzi Bankın da sürətlə faiz artımına getməsi ona gətirib çıxardı ki, faizlər yüksəlib”

***REAL Partiyasının icra katibi, iqtisadçı-ekspert Natiq Cəfərli ”Unikal”a müsahibə verib. O, ”Günay Bank”ın lisenziyasının ləğv olunmasından, Əmanətlərin Sığortalanması Fondunun fəaliyyətindən, bank faizlərinin hansı səbəbdən yüksək olmasından və başqa məsələlərdən danışıb.***

***-Natiq bəy, Azərbaycan Mərkəzi Bankı ”Günay Bank”ın lisenziyasının ləğv olunması və bankın müflisləşmə yolu ilə ləğv edilməsi barədə məhkəməyə müraciət edib. Bununla ölkəmizdə daha bir bank bağlanıb. Digər banklar üçün də bağlanma təhlükəsi varmı?***

-Azərbaycan Mərkəzi Bankının son zamanlar açıqladığı hesabatlarda hansısa ciddi təhlükəli vəziyyətdə olan banklarla bağlı məlumat yox idi. ”Günay Bank”la bağlı problemlərin olması ilə bağlı ilkin məlumat mövcud deyildi. Azərbaycanda fəaliyyət göstərən İran bankının (“Bank Melli” İranın Bakı Filialı) və Pakistan Milli Bankının Bakı Filialı ilə bağlı müəyyən problemlərin olduğu söylənilirdi. Bunlar isə Azərbaycanın bank dövriyyəsində ciddi rol oynamırlar. Digər banklarla bağlı isə hər hansı məlumat yox idi. ”Günay Bank” presedenti onu göstərdi ki, əvvəlcədən hesabatlarda məlumat olmayan banklarla da bağlı hansısa qərarlar verilə bilər. Ona görə də bu məsələnin digər banklara da təsir edəcəyini indidən söyləmək çətindir. Görünən odur ki, ”Günay Bank” məsələsi Azərbaycanın bank sistemində yenidən hansısa dalğalanmalara, silkələnmələrə səbəb ola bilər.

***-Məlumdur ki, bankların ləğv olunması ilə bağlı məsələ Əmanətlərin Sığortalanması Fonduna həvalə edilir. Zaman-zaman həm vətəndaşlardan, həm də ekspertlərdən Fondun fəaliyyəti ilə bağlı narazılıqlara rast gəlirik. Onların fəaliyyətini necə qiymətləndirirsiz?***

-Əmanətlərin Sığortalanması Fondu ilə bağlı ciddi iradlar, tənqidlər olub. Əsasən bir neçə bankın ard-arda bağlandığı dövrdə onun həm kreditorları, həm də debitorları ilə bağlı Fonda ciddi iradlar oldu. Əmanətlərin vaxtında geri qaytarılmaması ilə bağlı problemlər yaşandı. Ən çox fiziki şəxslərin deyil, hüquqi şəxslərin əmanətləri və həmin banklarda olan vəsaitlərinin geri qaytarılması prosedurları ilə bağlı da çətinliklərin olduğu söylənildi. Mətbuatda da dəfələrlə yazıldı. Hətta bu barədə bizə də şikayətlər gəlirdi. Ümid edək ki, indiki vaxtda Əmanətlərin Sığortalanması Fondu bu işin öhdəsindən gələ biləcək. Bildiyim qədər ”Günay Bank”da elə də böyük əmanət portfeli yox idi. Əmanətçilərin vaxtında vəsaitlərini geri alması, onların əmanətlərinin başqa banklara köçürülməsi elə də çətin məsələ deyil. Belə ki, Fondun bunu etməyə vəsaiti çatır. Onlar büdcədən dotasiya alır, həmçinin banklardan müəyyən üzvlük haqqı toplayırlar. Ona görə də vətəndaşların incidilmədən, tezliklə bu problemin aradan qaldırılması üçün Fondun imkanları var. Normal idarəetmə sistemi qursalar, tezliklə bunu həll edə bilərlər.

***-Bildiyimiz kimi, fiziki şəxslərin 100 min manatadək olan əmanətləri sığortalanır. 2023-cü il aprel ayının 1-nə “Günay Bank”ın ümumi depozitlərinin həcmi 108 milyon 566 min manata bərabər olub. Bu ilin I rübünün sonuna bank üzrə sığortalanmış (kompensasiya olunan) əmanətlər 38,5 mln. manat təşkil edir. O zaman yerdə qalan əmanətlərin aqibəti necə olacaq?***

-Doğurdan da bu problemdir. Qanunla 100 min manata qədər olan əmanətlər sığortalanır. Həmin əmanətlər dövlət zəmanəti ilə sığortalandığı üçün istənilən halda geri qaytarılacaq. Həmin məlumat doğrudursa, sığortalanmayan əmanətlərlə bağlı problemlər ola bilər. Bu məsələnin iki yolu var. Ya Əmanətlərin Sığortalanması Fondu bunu da öz üzərinə götürür və vətəndaşlar problem yaşamasın deyə müqavilələri yeniləyərək həmin vəsaiti qaytarır. Ya da məsələ məhkəmə yolu ilə həllini tapır. Belə ki, vətəndaşlar məhkəməyə müraciət edəcəklər. Bu zaman məhkəmələr də deyirlər ki, vətəndaş bilməli idi ki, bu risklidir. Vətəndaşın da burada günahı var. Amma bu o demək deyil ki, bütün məsuliyyəti vətəndaş daşımalıdır. Keçmiş illərdə buna bənzər presedentlərə baxanda görürük ki, daha çox məhkəmə yolu ilə problemin həll olunmasına nail olmaq mümkündür. Məhkəmələr bəzi hallarda bu məsələlərdə vətəndaşın xeyrinə qərarlar veriblər.



***-Azərbaycanda bankların kredit faizləri həmişə əsas müzakirə mövzusudur. Necə düşünürsüz, yaxın vaxtlarda bank faizlərinin aşağı salınmasının şahidi ola bilərikmi?***

-Son aylar Mərkəzi Bank uçot dərəcəsini artıra-artıra gedir. Bu addımı inflyasiya ilə mücadilə etdiyini deyərək atır. Azərbaycan reallığında uçot dərəcəsinin inflyasiyaya ciddi təsiri yoxdur. Bu ən çox kredit faizlərinin artmasına səbəb olur. Bank sektorunda ciddi rəqabətsizlik mühiti var. Banklar demək olar ki, eyni təkliflərlə çıxış edirlər. Rəqabətsizlik mühitinin olması, Mərkəzi Bankın da sürətlə faiz artımına getməsi ona gətirib çıxardı ki, faizlər yüksəldi. Azərbaycanda həm kommersiya, həm də istehlak kreditləri kifayət qədər yüksəkdir. Bunun yaxın vaxtlarda aşağı düşməsi isə gözlənilmir. Bank faizlərinin aşağı düşməsi üçün Mərkəzi Bank yenidən faizləri aşağı salmalıdır. Eyni zamanda, rəqabətli mühiti artıracaq addımlar olmalıdır. Bazara xarici böyük oyunçuların daxil olmasına imkanlar yaradılmalıdır. Ölkəmizdə bir başa bank kapitalı ilə iştirak edən xarici banklar yoxdur ki, onlar rəqabətli mühiti gücləndirsinlər. Elə etmək lazımdır ki, Azərbaycan bazarı xarici bankların marağında olsun. Bu, bank faizlərinin ciddi şəkildə aşağı düşməsinə səbəb ola bilər.

***-Sonuncu sualımız qardaş Türkiyədəki seçkilərlə bağlıdır. Mayın 28-də Türkiyədə prezident seçkilərinin ikinci turu keçiriləcək. Siz bu turda kimin qalib gələcəyini düşünürsüz?***

-Əgər Ədalət və İnkişaf Partiyası (AKP) və Rəcəb Tayyib Ərdoğanın komandasında arxayınlıq olmasa, artıq məsələ həll olunub. Belə ki, prezident seçkilərinin birinci turunda AKP və Ərdoğan çox böyük uğur qazandı. Düşünürəm ki, ikinci turda Ərdoğan 10 faiz səs fərqi ilə seçkidə qalib gələcək. Belə deyərdim ki, əsas rəqibləri CHP və onun lideri deyil. Əsas rəqib özləridir. Yəni, arxayınlıq yaranmalı deyil. Arxayınlıq yaranmasa, seçkini çox rahatlıqla udacaqlar.

***Anar Kəlbiyev***

# Nazim İbrahimov başını itirib

## Sabiq komitə sədri Ukraynadakı biznesini Şərqi Avropaya köçürmək cəhdləri boşa çıxdı

***Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (2002-2008) və Diasporla İş üzrə Dövlət Komitəsinin (2008-2018) sabiq sədri olmuş Nazim İbrahimov pis vəziyyətdə qalıb. Belə ki, o, Rusiyanın təcavüzünə məruz qalan Ukraynadakı biznesini bu ölkədən çıxarmaq üçün bir müddətdir ki, ciddi şəkildə tər töksə də, istəyinə çata bilməyib.***

Məlumatlı mənbələrin "Unikal"a bildirdiyinə görə, sabiq komitə sədri Ukraynada işğal əməliyyatlarının start götürməsindən az sonra adıçəkilən ölkədəki biznesini Şərqi Avropaya daşımaq üçün hərəkətə keçib. Bu sırada söhbət əsasən Çex Respublikası ilə Slovakiyadan gedir. Lakin ötən bir il müddətində İbrahimovun cəhdləri istənilən effekti verməyib.

Xatırladaq ki, hələ ötən il Rusiyanın əmlak sahibinə çevrildiyi də verilən məlumatlar arasındadır.

Məhz yuxarıda sadalanan məqamları nəzərə alaraq Nazim İbrahimovun Ukraynadakı biznesini Almaniya və Çexiyaya köçürməyi qərarlaşdırdığı deyilirdi.

Ancaq redaksiyamıza daxil olan məlumatlarda sabiq komitə sədrinin Ukraynadakı biznesini Şərqi və Qərbi Avropa ölkələrinə daşımaqdan vaz keçmək məcburiyyətində qaldığı bildirilir. Buna səbəb kimi isə onun Rusiyada da biznesinin olması və Kremldəki müəyyən dairələrlə yaxınlığı göstərilir. İddialar bu yöndədir ki, ətrafı İbrahimovu Ukraynadakı biznesini Avropya köçürəcəyi təqdirdə Qərbin Rusiyaya sanksiyalarına tuş gələcəyi ilə bağlı xəbərdar edib. Nəticədə o, təlaşlı vəziyyətə düşüb və mövcud situasiyadan çıxmağın başqa yolları üzərində baş sınnəhəng maliyyə imperiyası qurmağa müvəffəq olub. Bu "imperiyaya" ticarət mərkəzləri, müxtəlif profilli mağazalar, otellər və restoranlar daxildir.

Sabiq sədrin adıçəkilən ölkədəki evlərinin sayı da kifayət qədərdir. Onun orada geniş torpaq sahələrinə də sahibləndiyinə dair məlumatlar var. İddialara görə, sabiq "diaspora şefi"nin Ukraynadakı biznes şəbəkəsi təkcə paytax Kiyevi deyil, Ukraynanın ayrı-ayrı bölgələrini, o cümlədən, qanlı savaşdan ən çox əziyyət çəkən şəhərlər siyahısında gələn Xarkovu əhatə edir.

Bütün bunları nəzərə aldıqda isə hazırda Nazim İbrahimovun biznesini başqa öıkəyə köçürmək niyyətini anlamaq olar.

Yeri gəlmişkən, Dövlət Komitəsinin sədri vəzifəsində çalışarkən N.İbrahimovun Ukraynadakı biznesini onun yaxın adamları idarə edib. O, yalnız ara-



Ukraynaya hücumundan sonra sabiq "diaspora şefi" üçün təlaşlı günlərin başladığını yazmışdıq. Bildirmişdik ki, o, bir neçə ay boyunca müharibənin bitəcəyini və vəziyyətin stabilləşəcəyini gözləyib, lakin sonradan həmin gözləntilərinin özünü doğrultmadığını görüncə ailə biznesi üçün yeni ölkələrin axtarışına çıxıb. Sonda isə İbrahimov Almaniya və Çex Respublikasında qərar tutmağa qərar verib. O vaxt bildirilirdi ki, keçmiş komitə sədrinin məhz adıçəkilən ölkələri seçməsi təsadüfi deyil. Məsələ burasındadır ki, onun Almaniyada daha əvvəldən gəlir qaynaqları vardı. Söhbət ondan gedir ki, İbrahimovun bu ölkədə maşın satış nöqtəsi və digər biznes obyektlərinin olması barədə əvvəllər də mətbuatda məlumatlar yayılıb. Hətta sabiq "diaspora şefi"nin məhz bu biznes şəbəkəsindən əldə olunan gəlirlərin mühüm bir qismini xaricdəki müxalifləri aylıq olaraq maliyyələşdirməyə ayırdığına dair də iddialar ortaya atılmışdı. Lakin N.İbrahimov həmin iddialar barədə susmağa üstünlük verib. Çexiya da keçmiş komitə sədri üçün yad ölkə sayılmır. Onun vəzifədə olarkən Çexiyanın siyasi və biznes dairələri ilə yaxşı münasibətlər qurduğu, adıçəkilən ölkənin turizm və kurort əhəmiyyətli bölgələrində daşınmaz dırmağa başlayıb. Lakin keçmiş komitə sədrinin aylardan bəridir hər hansı optimal çıxış yolu tapa bilmədiyi, ona görə də ciddi şəkildə psixoloji gərginlik keçirdiyi gələn məlumatlar arasındadır.

Xatırladaq ki, vəzifədə olarkən qalmaqallı məmur kimi yadda qalan, işdən çıxarıldıqdan sonra Prezident Administrasiyasının ovaxtkı rəhbəri Ramiz Mehdiyev tərəfindən birbaşa korrupsiyada ittiham edilən, bundan sonra həbsi belə gündəmə gələn sabiq komitə sədri hələ 1991-97-ci illərdə biznes fəaliyyəti ilə məşğul olub. Həmin vaxtdan onun ticarət işlərində Ukrayna xüsusi yer tutub. 1997-ci ilin mart ayından Azərbaycan Respublikasının Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri təyin edildikdən sonra isə İbrahimov bu ölkədəki biznesini daha da möhkəmləndirib və genişləndirib.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri təyin edildikdən sonra vardövlətini daha da artıran İbrahimov böyük məbləğdə büdcə pullarını təyinatı üzrə xərcləməyərək onları faktiki olaraq biznesinin böyüməsinə yönəldib. Tezliklə nəinki onun özü, övladları belə böyük sərvətə yiyələniblər.

Ümumiyyətlə isə Nazim İbrahimovun Ukraynadakı böyük biznesinə gəlincə, o hazırda savaşın getdiyi ölkədə sıra bu ölkəyə səfər edərək gəlirlər barədə hesabat qəbul eləyirmiş.

Vəzifəsindən uzaqlaşdırıldıqdan sonra isə sabiq diaspora rəhbərinin Ukraynaya səfərləri intensivləşib və o, hər səfərində yaxınlarına buradakı biznes şəbəkəsini daha da genişləndirmək niyyətində olduğunu gizlətməyib. Üstəlik, bu şəbəkənin başında artıq şəxsən özünün dayanacağını deyib. Müharibə başlamamışdan bir müddət əvvəl onun Kiyevdə olduğu, budəfəki səfərinin uzun müddətli ola biləcəyi, yəqin ki, orada qalıb Ukraynadakı biznesi ilə bağlı bütün məsələlərlə şəxsən özünün məşğul olacağı iddia edilmişdi.

Üstəlik, yerli mediada N.İbrahimovun mütəmadi şəkildə Kiyevə getdiyini təsdiqləyən foto da yayılmışdı. Həmin foto Ukrayna paytaxtındakı Borispol Hava Limanında çəkilmişdi və bildirilmişdi ki, o, Bakı-Kiyev təyyarə reysindən düşüb...

Hazırda isə Nazim müəllim nəinki həmin reysə bir daha minmək, ümumiyyətlə, Ukrayna ilə vidalaşmaq yolları üzərində baş sındırır. Lakin gələn məlumatlar onun düşdüyü vəziyyətdən minimum itki ilə çıxmaq üçün hələ ki, heç bir yol tapa bilmədiyini göstərir.

*Sənan Mirzə*



# "Zəngilan" tankeri yerli gəmi sənayesinin inkişafına mühüm töhfədir - Nazir

***"Zəngilan" tankeri inşasının davam etdirilməsi məqsədilə suya salınıb. Texniki göstəricilərinə görə geniş imkanlara malik bu gəmi Bakı Gəmiqayırma Zavodunda inşa edilən sayca dördüncü neft tankeri və ikinci neft-kimyəvi məhsullar daşıyan tankerdir.***

"Unikal" xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov özünün "Twitter" hesabında bildirib.

"Tankerin inşası Azərbaycan ərazisindən tranzit yükdaşımalarının həyata keçirilməsinə, neft-qaz layihələrinin uğurla icrasına və yerli gəmi tikintisi sənayesinin inkişafına mühüm töhfədir", -deyə paylaşımda qeyd edilib.

Qeyd edək ki, 16 may tarixində Azərbaycanda "Zəngilan" tankeri suya buraxıldı. Tanker Bakı Gəmiqayırma Zavodunda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) sifarişilə inşa edilib.

Tankerin uzunluğu 141, eni 16,9, hündürlüyü isə 6 metrdir. Tankerin dənizdə deveyti 8009 tondur, ən müasir avadanlıqla, o cümlədən hər biri 1200 kilovat gücünə malik iki əsas mühərriklə, yük nasosları, sistem ventilyasiyası, naviqasiya cihazları və separatorla təchiz olunub. Gəminin sürəti saatda 10 uzelə çata bilir. Ümumi tutumu 9 212 kubmetr olan altı yük çəninə malikdir.

# ÜST-dən psixi sağlamlığında problem olan şəxslərə çağırış

***"Bütün dünyada olduğu kimi, Azərbaycanda da psixi sağlamlıqla əlaqəli əhali arasında diskriminasiya mövcuddur".***

Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəsi Hande Harmancı "Psixi sağlamlıq xidmətlərinin münaqişədən sonrakı dövrdə koordinasiyası və transformasiyası" layihəsinin aralıq nəticələrinin təqdimat mərasimində deyib.

O bildirib ki, insanlar psixi sağlamlıqla bağlı problem olduğu zaman bunu deməyə utanmamalıdırlar: "Qrip və digər xəstəliklərin daşıyıcısı olduğunu deməkdən utanmadığımız kimi psixi sağlamlıqla bağlı problemi də ifadə etməkdən çəkinməməliyik. Əlbətə, ailədə hər kəsin bir-birinə dəstəyi önəmlidir, amma zərurət olduğu zaman professional dəstəyə ehtiyacın yaranması ayıb deyil. Bunu hər kəs qəbul edərsə, diskriminasiya əleyhinə atılan önəmli bir addım olar".

# 20 mindən çox əlilə reabilitasiya xidmətləri göstərilib

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin reabilitasiya müəssisələrində bu ilin yanvar-aprel aylarında əlilliyi olan 20,1 min şəxsə reabilitasiya xidmətləri göstərilib.***

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, onların mühüm bir hissəsini müharibə ilə əlaqədar əlilliyi olan şəxslər təşkil edib.

Müasir reabilitasiya şəraitinin yaradıldığı mərkəzlərdə əlilliyi olan şəxslər səmərəli fizioterapevtik müalicə prosedurlarına cəlb edilib, müalicəvi bədən tərbiyəsi, sosial-psixoloji xidmətlərlə də təmin olunublar.

Həmin dövr ərzində əlilliyi olan 4499 şəxs 26219 reabilitasiya vasitəsi ilə təmin edilib.



## Ermənistan silahlı qüvvələri döyüş PUA-ları tətbiq edib

***Mayın 18-i saat 07:15 radələrində Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən bir neçə mövqeyinə qarşı Ermənistan silahlı qüvvələri tərəfindən döyüş PUA-ları tətbiq edilib.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Əraziyə baxış keçirilərkən ermənilərin PUA-lar vasitəsilə atdığı kustar üsulla hazırlanmış əldəqayırma mərmilərin qalıqları aşkar edilib.

Azərbaycan Ordusunun bölmələri itki verməyib, cavab tədbirləri görülür.

"Bildiririk ki, bölgədə yaranan gərginliyə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür", - deyə məlumatda qeyd olunub.

## "Ali təhsil sistemi dəyişməlidir" - Nazir müavini

***"Biz istəsək də, istəməsək də ali təhsil sistemi dəyişməlidir. Bu sahədə ciddi islahatlar aparılmalıdır".***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil nazirinin müavini İdris İsayev "Ali Təhsildə Keyfiyyət Təminatı və Keyfiyyətin Gücləndirilməsi" mövzusunda Beynəlxalq Forumda çıxışı zamanı deyib.

O bildirib ki, ali təhsil sistemində klassik yanaşmalardan uzaqlaşmaq lazımdır: "Ali təhsil müəssisələrimizə çevik qərarların qəbul edilməsi üçün mexanizmlər təklif olunmalıdır. Düşünürəm ki, yaxın zamanlarda bu sahədə islahatlar aparılacaq. Ali təhsil müəssisələrimiz ilk növbədə təhsilin keyfiyyətinin artırılması istiqamətində öz fəaliyyətlərini daha düzgün formada qura biləcəklər".

## Maştağada iki azyaşlı quyuya düşərək öldü



***Bakıda iki azyaşlı quyuya düşərək ölüb. Bu barədə "Unikal"a Fövqəladə Hallar Nazirliyindən məlumat verilib.***

Bildirilib ki, FHN-in "112" qaynar telefon xəttinə Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsində iki azyaşlının quyuya düşməsi barədə məlumat daxil olub. Daxil olan məlumatla əlaqədar hadisə yerinə dərhal nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin xilasediciləri cəlb edilib. Hadisə yerində əməliyyat şəraiti qiymətləndirilərkən müəyyən olunub ki, 2013-cü il təvəllüdlü 2 uşaq dərinliyi təxminən 45-50 metr, diametri 2,5 metr olan su, mazut və məişət tullantıları ilə dolu quyuya düşüblər.

Xilasedicilər xüsusi vasitələrlə azyaşlıların cəsədlərini çıxararaq aidiyyəti üzrə təhvil veriblər. Hadisə ilə əlaqədar müvafiq qurumlar tərəfindən araşdırma aparılır.

Sabunçu Rayon Prokurorluğundan bildirilib ki, 2 azyaşlının meyitinin aşkar edilməsi faktı üzrə araşdırma aparılır. Belə ki, mayın 17-si saat 19 radələrində paytaxtın Sabunçu rayonu ərazisində yerləşən quyuda 2 nəfər azyaşlının meyitinin aşkar edilməsi barədə rayon prokurorluğuna məlumat daxil olub. İlkin araşdırma zamanı azyaşlıların meyiti üzərində hər hansı xəsarət müəyyən edilməyib.

Zərərçəkmişlərin ölüm səbəbinin müəyyən edilməsi üçün məhkəmə-tibbi ekspertizası təyin edilib və digər zəruri hərəkətlər aparılıb.

Faktla bağlı Sabunçu rayon prokurorluğunda araşdırma davam edir.

# Sabiq deputatın ailə biznesi ilə bağlı şok iddia

## "Odlar Yurdu" Universitetinin rektoru Əhməd Vəliyevin bankının vəziyyəti digərlərindən daha pisdir?



***Azərbaycan Mərkəzi Bankının (AMB) "Günay Bank"ın lisenziyasının ləğvi ilə bağlı qərarı müzakirələrə səbəb olub.***

Məsələ ilə bağlı danışan maliyyə bazarı üzrə ekspert Əkrəm Həsənov deyib ki, bununla bağlı əsaslandırmanı bir neçə əsas bankı çıxmaq şərti ilə bütün bazara aid etmək olar: "Məsələn, məndə olan məlumata görə, "Muğan Bank"ın kapital göstəriciləri daha pisdir. Problemli kreditləri daha çoxdur. Bəlkə daha pis vəziyyətdə olan banklar var".

"Unikal"ın mövzu ətrafında araşdırması nəticəsində isə məlum olub ki, ekspertin söylədikləri heç də təsadüfi deyil. Məsələ burasındadır ki, "Muğan Bank" ASC-in son 3 ayda xalis mənfəəti kəskin şəkildə azalıb. Adıçəkilən bank 2023-cü ilin I rübündə 102,9 min manat xalis mənfəət əldə edib ki, bu da ötən ilin eyni dövrünə nisbətən 29,3 dəfə azdır. Bank 2022-ci ilin ilk rübündə 3,01 milyon manat xalis mənfəət açıqlamışdı.

Rüblük maliyyə hesabatına görə, bankın faiz gəlirlərinin həcmi illik müqayisədə 17,7% artaraq 10,7 mln. manat təşkil edib. Bankın faiz xərcləri isə 31,2% artaraq 10,5 milyon manat olub. Nəticədə bankın xalis faiz gəlirləri 161.9 min manat təşkil edib. Lakin bu da ötən ilin eyni dövrünə nisbətən 5,8 dəfə azdır.

Bankın qeyri-faiz gəliri 31,8% azalaraq 7,6 mln. manat, qeyri-faiz xərcləri isə 5,6% artaraq 7,1 mln. manat təşkil edib. Bu dövrdə Bankın əməliyyat mənfəəti 149,4 min manata (32,5 dəfə az) bərabər olub.

Həmçinin, 1 aprel 2022-ci il tarixinə bankın cəmi aktivləri 7,4% azalaraq 739,8 milyon manata enib, o cümlədən kredit portfeli 6,9% azalaraq 416,7 milyon manata enib. "Muğan Bank"ın öhdəlikləri isə 8,5% azalaraq 646,5 milyon manata bərabər olub, o cümlədən depozit portfeli 12,8% azalaraq 428,01 milyon manata düşüb. Son üç ayda şirkətlər bankdakı əmanətlərini 2,9 dəfə və ya 63,6 milyon manat azaldaraq 33,6 milyon manata endiriblər.

Bu ilin birinci rübündə bank cəmi kapitalını 0,2% artıraraq 93,3 milyon manata çatdırıb.

Qeyd edək ki, "Muğanbank" bank dairələrində daha çox "Odlar Yurdu" Universitetinin rektoru, sabiq deputat Əhməd Vəliyevin bankı kimi tanınır. Mətbuatda sözügedən bankın adı hətta "MTN işində" belə hallandırılıb və riskli banklardan biri kimi təqdim olunub.

Məlumat üçün onu da bildirək ki, bankın səhmdarlarının nizamnamə kapitalındakı pay bölgüsü aşağıdakı kimidir: Mehdiyev Elmir Maqbet oğlu - 63,50 faiz (Ə.Vəliyevin kürəkəni, həmçinin bankın Müşahidə Şurasının sədri), Vəliyeva Vəfa Əhməd qızı - 12,05 faiz (Ə.Vəliyevin qızı), Mehdiyev Maqbet Rəhim oğlu - 13,10 faiz (Ə.Vəliyevin qudası, Tibb Universitetinin dosenti) Mehdiyeva Fəridə Cahandar qızı - 11.35 faiz (Ə.Vəliyevin qudası)g

Ə.Vəliyev özü isə bankın ona bağlılığını bir neçə dəfə inkar edib. Baxmayaraq ki, yuxarıdakı siyahıdan "Muğanbank"da sabiq deputat və rektorun ailə üzvlərinin tam paya sahib olduqları aydın görünür.

"Unikal"ın aprel ayındakı saylarından birində qeyd etdiyi kimi, son illər mətbuatda "Muğanbank"ın da çətin maliyyə vəziyyətinə düşdüyü, banka Mərkəzi Bank tərəfindən xəbərdarlıq edildiyi, bağlanma ehtimalının yarandığı və s. barədə məlumatlar yer alıb. Bu da təsadüfi sayılmır, çünki bankın maliyyə göstəriciləri son illərdə onun vəziyyətinin qənaətbəxş olmadığından xəbər verirdi.

Yeri gəlmişkən, Azərbaycanda fəaliyyət göstərən kommersiya bankları 2022-ci ilin birinci yarısına dair maliyyə göstəricilərini açıqlayarkən aydın olmuşdu ki, həmin dövrdə ölkə iqtisadiyyatında yüksək inkişafa, əhalinin və biznes sektorunun yüksək gəlir əldə etməsinə baxmayaraq bəzi banklar durğunluq vəziyyətindən çıxa bilməyiblər. O zaman media yazırdı ki, onlardan biri "Muğanbank" ASC-dir. Bankın açıqladığı məlumatlardan görünürdü ki, ötən ilin ilk 6 ayında bank kiçilib. 2021-ci ilin sonunda aktivlərini 708,5 milyon manata qədər artıran bank, 2022-ci ilin ilk 6 ayında 698 milyon manat aktivə sahib olub. "Aktivlərin kiçilməsi banklar və digər maliyyə institutlarındakı depozitlərin azalması ilə bağlıdır. 2022-ci ildə başqa banklarda 142 milyon manat depoziti olan "Muğanbank" hazırda 77,4 milyon manat depozitə sahibdir. "Muğanbank"ın digər banklardan vəsaitlərini çəkməsinin səbəbi maliyyə çətinliyi ilə üzləşməsidir. Belə ki, hüquqi şəxslər bankda olan vəsaitlərin çox hissəsini götürdüyündən "Muğanbank" çətin vəziyyətə düşüb. Hüquqi şəxslərin 2022-ci ilin əvvəlində 116 milyon manat depoziti olub. Lakin 6 ay sonra həmin depozitlər 54,8 milyon manata qədər azalıb. Depozitlərin azalması bankı çətin vəziyyətə salıb və buna görə də "Muğanbank" digər banklarda olan vəsaitinin bir hissəsini geri çəkib. O da bildirilir ki, "Muğanbank" hüquqi şəxslərin hansı səbəbdən vəsaitlərinin çox hissəsini götürdüyünü açıqlamır" deyə ötən ilin yayında ölkənin iqtisadiyyat saytları yazırdı.

O da vurğulanırdı ki, maliyyə sıxıntısı yaşayan bank bu vəziyyətdə fiziki şəxslərdən daha çox depozit cəlb etməyə çalışır. Bununla əlaqədar olaraq bankda depozit faizləri artırılıb. Faizlərin artırılması hesabına bankda fiziki şəxslərə aid olan depozitlər 24 milyon manat yüksələrək 305 milyon manata çatıb.

Lakin bu ilin ilk 3 ayına dair hesabatdan aydın olur ki, Əhməd Vəliyevə aid edilən bankın depozit portfeli 12,8% azalaraq 428,01 milyon manata düşüb. Üstəlik, bu ilin ilk rübündə şirkətlər bankdakı əmanətlərini 2,9 dəfə və ya 63,6 milyon manat azaldaraq 33,6 milyon manata endiriblər...

Bütün bunlar "Muğanbank"da işlərin heç də yaxşı getmədiyinə dair bir müddətdir irəli sürülən iddiaların əsassız olmadığını söyləməyə imkan verir...

***Toğrul Əliyev***

# "Toy oliqarxları" "batır"

## Azərbaycanda məmurlara və onların himayəsindəki iş adamlarına məxsus şadlıq saraylarının ağlamalı günləri başlayıb

***Son vaxtlar Azərbaycandakı şadlıq sarayları özlərinin "qara günlərini" yaşayır. Gələn məlumatlar bu yöndədir ki, toyların sayı xeyli azalıb, bundan başqa, toylarda qonaq sayı da kəskin aşağı düşüb. Axır vaxtlar 80-100 nəfərlik toy edənlər çoxalıb, 500 nəfərlik toylar indi maksimum 250 nəfərlə keçirilir.***

Elə şadlıq saraylarının sahibləri və ya administratorları da bunu təsdiqləyir. Məsələn, bu günlərdə "Xudafərin" şadlıq sarayının administratoru Səyavuş Əsgərov yerli mediaya bildirib ki, yaranmış mənzərə "Heç vaxt Azərbaycanda olmayan haldır". Başqa bir şadlıq sarayının - "Neolit"in administratoru Rafət Şahmarov da əvvəlki kimi sifariş götürmədiklərini deyir: "Əvvəllər mart-aprel aylarında hər ay 15-18 toy tuturduqsa, bu il 4-5 toy oldu. 600-700 nəfərlik toylar yoxdur. 200-250, maksimum 400 nəfərlə edirlər. Ayda 500-600 nəfərlik maksimum bir toy olur".

İş o yerə çatıb ki, indi çox ailə qız-oğlan toyunu bir edir. Bu da ümumi toy sayına təsir göstərir.

Mövzu ilə bağlı danışan iqtisadçı Xalid Kərimli isə bir müddət əvvəl "kaspi.az"a bildirib ki, toyların azalmasının bir neçə səbəbi var: "Ərzaq qiymətləri bahalaşır, şadlıq sarayları da müvafiq olaraq menyu qiymətlərini artıra-artıra gedirlər. Əhali də bunu qarşılaya bilmir. Ona görə oğlan-qız toyunu birləşdirirlər, yaxud daha az qonaqla ayrı-ayrı edirlər. Üstəlik, 300-500 nəfəri toyuna çağıran adam sonra onların toyuna getməli idi. İnflyasiya fonunda artıq adamlar görürlər ki, sonra o xərcləri qarşılamaq ciddi problemdir. Bunu görənlər az adam çağırır ki, özü də az toya getsin..."

Ekspertin fikrincə, məlum sahəyə investisiya yatıran biznes adamları əslində, bunun olacağını görməli idilər: "Eyni ərazidə nə qədər şadlıq sarayı tikilib. O vaxt toylar çox idi, işləri də yaxşı gedirdi. Biznes qurularkən tələb-təklifin dəyişə biləcəyi proqnozlaşdırılmalıdır. Ən böyük günahları odur ki, sektorun potensialını, gücünü, perspektivini düzgün hesablaya bilməyiblər. Təbii ki, bazara gələnlər bu riskləri... görməli idilər".

"Unikal"ın araşdırması isə "toy oliqarxlarının" getdikcə daha çətin vəziyyətdə qaldığını təsdiqləyir. Araşdırmalarımız onların azalan sifarişləri qiymətləri bahalaşdırmaqla kompensasiya etməyə çalışdıqlarını göstərir: "Məsələn, əvvəllər 130-140 manata təklif olunan bahalı menyuların qiyməti hazırda 170-190 manat arasında dəyişir. Nisbətən aşağı qiymətli menyularda isə artım daha az hiss olunur. Bir neçə ay əvvəl 50 manata təklif olunan menyunun qiyməti isə 60 manata qədər artıb".

Şadlıq saraylarından birinin administratoru bu bahalaşmada tələbatın çox aşağı olmasını əsas səbəb kimi göstərib: "Toy edən yoxdur. Əvvəlki illərə nisbətən toyların sayı çox aşağıdır. Üstəlik də ərzaqların qiymətləri də kəskin artıb. Bazar od tutub yanır. Belə vəziyyətdə qiymətləri qaldırmaqdan başqa yol qalmır. Ancaq belədə də heç bir xeyri yoxdur, olan-qalan müştərini də itiririk".

Həmsöhbətimiz nəinki 500-600, hətta 300-350 nəfərlik toyların da artıq keçmişdə qaldığını deyib: "İmkanlı adamlar isə artıq şadlıq saraylarını arxa plana atıb. Onlar lüks restoranlara üstünlük verirlər, ya da ölkə kənarında məhdud dairədə toylar edirlər. Şadlıq sarayları batır. Sadə vətəndaşlar belə artıq əvvəlki kimi toy həvəskarı deyillər. Bu gedişlə şadlıq saraylarının çoxu tezliklə təyinatlarını tamamilə dəyişəcəklər".

Sonda onu da qeyd edək ki, hökumətdə təmsil olunan yüksək çinli məmurların - nazirlərin, komitə sədrlərinin, onların müavinlərinin, həmçinin deputatların bizneslə məşğul olması çoxdan müzakirə mövzusudur. Qanunvericiliyin onlara biznes fəaliyyətini qadağan etməsinə, bununla bağlı Cinayət Məcəlləsində xüsusi maddənin nəzərdə tutulmasına baxmayaraq, indiyə qədər nəinki hər hansı məmur və ya deputat cəzalandırılmayıb, əksinə, onlar biznes fəaliyyətlərini genişləndirərək iqtisadiyyatın ən gəlirli sahələrində inhisarçı mövqe yaradıblar.

Elə bir zamanlar illik yüz milyonlarla manatın dövr etdiyi, keçmişdəki bəzi hesablamalara görə hətta 1 milyard manatın üzərinə çıxdığı bildirilən, indi isə böhran dövrünə qədəm qoyan və "bankrot" həddinə çatan "toy biznesi"ndə də durum fərqli deyil. Belə ki, Azərbaycanın məşhur şadlıq saraylarının arxasında əsasən iri məmurlar və millət vəkilləri dayanırlar. Həmin şadlıq saraylarını ya onların ailə üzvləri və digər yaxınları idarə edir, ya da bu cür obyektləri müəyyən iş adamları ilə şəriklik müqabilində himayə edirlər.

İnternetdə kiçik bir araşdırma aparmaqla haqqında danışılan məmurların, iş adamlarının, qısası, "toy oliqarxlarının" kimliyini öyrənə bilərsiniz. Onların düşdükləri böhranlı durumdan necə çıxacaqlarını, ümumiyyətlə, çıxıb-çıxmayacaqlarını isə zaman göstərəcək...

***Sənan Mirzə***



# Yaşı 60-dan yuxarı olan müəllimlərin sertifikasiyası könüllüdür - RƏSMİ

***"60 yaşı tamam olan müəllimlərin sertifikasiya imtahanlarında iştirakı könüllü xarakter daşıyacaqsa, onlar yalnız istədikləri təqdirdə müəllimlərin işə qəbul imtahanında iştirak edəcəklər. Əgər iştirak etsələr əmək haqlarında təbii ki, dəyişiklik olacaq. MİQ-də iştirak etməsələr artım onlara şamil olunmayacaq".***

"Unikal" xəbər verir ki, bunu Elm və Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Eşqi Bağırov deyib.

Nazirlik əməkdaşı deyib ki, sertifikasiya imtahanlarını keçirməkdə məqsəd təhsilverənlərin peşəkarlığını ölçmək, təlimə ehtiyac olub-olmadığını müəyyənləşdirməkdir.

"Hədəfimiz kimisə işdən çıxarmaq deyil. Qanunvericiliyə təklif edilən dəyişiklik qəbul olunarsa, 60 yaş üzəri müəllimlərin sertifikasiyada iştirakı könüllü olacaq. Hazırda məktəblərdə yaşı 60-dan artıq olan 5 mindən çox müəllim işləyir. Təkliflər hələ qəbul edilmədiyindən həmin müəllimlərə də iştirakla bağlı SMS göndəriləcək. Dəyişiklik olsa, məsələyə yenidən baxacağıq", - o qeyd edib.

# "Günay Bank"ın kartı ilə maaş alanların nəzərinə

***"Mərkəzi Bankın qərarı ilə lisenziyası ləğv edilən "Günay Bank"da olan əmək haqqı və plastik kartlardakı pulların taleyi ilə bağlı ünvanlanan suallar ilə əlaqədar qeyd etmək istərdik ki, o vəsaitlər Əmanətlərin Sığortalanması Fondu tərəfindən kompensasiya ediləcək".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, həmin kartlarda olan pullar dövlət tərəfindən vətəndaşlara ödəniləcək:

"Belə ki, fiziki şəxslərin kartlarında olan vəsaitlər ləğvedici təyin edildikdən sonra qanunvericiliyə uyğun olaraq qorunan əmanət kimi vətəndaşlara ödənilir. Bunun üçün ləğvedici tərəfindən agent bank seçilir və həmin vəsaitlərin qaytarılması müəyyən edilmiş qaydada həyata keçirilir. Prosesə yaxın zamanlarda start veriləcəyi gözlənilir", - deyə deputat qeyd edib.

***Seymur Əli***

# Müharibədən sonra 3900 nəfərə əlillik təyin edilib

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müharibədən sonra 124 min şəxsə, şəhid ailələri, müharibə əlilləri, müharibə iştirakçılarına ümumilikdə 285 min müxtəlif sosial xidmət göstərilib.***

"Unikal" xəbər verir ki, bunu "Psixi Sağlamlıq Xidmətlərinin Münaqişədən Sonrakı Dövrdə Koordinasiyası və Transformasiyası" layihəsinin aralıq nəticələrinə dair təqdimat mərasimində Dövlət Tibbi-sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə heyətinin sədri Anar Bayramov deyib.

Onun sözlərinə görə, həmin şəxslərdən 4600 nəfər fərdi evlərlə təmin olunub. "3900 nəfərin əlillik dərəcəsi müəyyən edilib. 1900 nəfər müxtəlif növ reabilitasiya vasitələri ilə təmin olunub. 416 nəfər isə 433 protezlə təmin olunub. Agentliyin tabeliyində olan 14 reabilitasiya mərkəzi vasitəsilə 2803 müharibə iştirakçısına psixoloji yardım göstərilib", - A.Bayramov qeyd edib.

Ucarda nəqliyyat və rabitənin inkişaf statistikası

2023-cü ilin yanvar-mart aylarında nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fərdi sahibkarlar tərəfindən əhaliyə 829,6 min manatlıq xidmət göstərilmiş və 2022-ci ilin muvafiq dövrü ilə müqayisədə 13,6 faiz çox olmuşdur. Avtomobil nəqliyyatı ilə 2023-cü ilin yanvar-mart aylarında 1387 min nəfər sərnişin, 430 min ton yük daşınmış və 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə sərnişin dövriyyəsi 23,4 faiz, yük dövriyyəsi 1,9 faiz artmışdır.

2023-cü ilin yanvar-mart aylarında nəqliyyat sektorunda məhsul buraxılışı fiziki şəxslər üzrə cəmi 700,7 min manat olmuş, o cümlədən yük daşınması üzrə 118,2 min manat, sərnişin daşınması üzrə 582,5 min manat təşkil etmişdir. 2022-ci illə müqayisədə fiziki şəxslər üzrə məhsul buraxılışı cəmi 14,5 faiz, sərnişin daşınma üzrə 12,1 faiz, yük daşınma üzrə isə 28,1 faiz çox olmuşdur.

2023-cü ilin yanvar-mart aylarında informasiya və rabitə sektorunda təsərrüfat subyektlərinə və əhaliyə 178,8 min manatlıq xidmət göstərilmiş, bu da 2022-ci ilin eyni dövrü ilə müqayisə-



# Hər 10 uşaqdan 3-də skolioz əlamətləri müşahidə edilir

***Uşaqlar arasında skolioz halları artıb. Hər il bu problemlə üzləşən uşaqların sayında yüksəliş müşahidə olunur. Demək olar ki, hər 10 uşaqdan 3-də qamət əyriliyi və skolioz əlaməti var.***

"Unikal"ın məlumatına görə, bunu Bakı Baş Səhiyyə Mərkəzinin tabeliyində fəaliyyət göstərən 5 nömrəli Uşaq Poliklinikasının həkim-cərrahı Günel Acalova deyib. Onun sözlərinə görə, uşaqların sürətli boy artımı dövründə valideynlər çox diqqətli olmalı, skolioza aid istənilən şübhə yarandığı zaman həkimə müraciət etməlidirlər:

"Skolioz etioloji faktora görə həm anadangəlmə, həm də sonradan qazanılan əsas 2 növə bölünür. Anadangəlmə skolioz adətən onurğa sütununun və qabırğaların anadangəlmə anomaliyaları və digər bir sıra səbəblərdən yarana bilər. Qazanılan skolioz isə müxtəlif səbəblərdən yaranır. Anadangəlmə çanaq oynağının çıxığı, diz və bud-çanaq oynağında kontrakturalar və bu qəbildən olan səbəblərdən yarana bilər. Bundan əlavə, uşaqlarda idiopatik skolioza da çox rast gəlinir".

Skolioz onurğa sütununun frontal (yana əyilmə) səthdə davamlı olaraq əyilməsidir. Bu, əsasən, uşaqlarda erkən yaşlarda başlayır, məktəb dövründə isə bir qədər də inkişaf edir.

Həkim G.Acalova bildirir ki, skolioz ən çox sürətli boyatma dövründə və məktəb yaşlı uşaqlarda müşahidə edilir. Bu, qızlarda 11-13, oğlanlarda isə 14-16 yaşı əhatə edir:

"Skoliozu müayinə etmək üçün həm kliniki, həm də rentgenoloji metodlardan istifadə edilir. Kliniki olaraq müayinə zamanı onurğa sütununa və uşağa öndən, yandan və arxadan baxılır. Öndən baxış zamanı uşaqlarda qamətin əyilməsi, həmçinin, körpücük sümüyünün, baş və üzün assimmetriyası, döş qəfəsinin deformasiyası, göbəyin orta xətdən bir qədər kənara çıxması kimi hallar müşahidə edilir. Arxa hissədən baxdıqda əsasən, kürək sümüklərində assimmetriya, fəqərələrin çıxıntılarındakı deformasiyaları görmək olar. Yandan baxdıqda isə kifozun daha qabarıq olduğu görünür. Dəqiq diaqnoz qoyulması üçün rentgenoloji müayinələr aparılır. Bu zaman uşaqlarda ayaqüstü ön və arxa proyeksiyada, uzanıqlı vəziyyətdə rentgen çəkilir. Bununla da skoliozun 4 dərəcəsi müəyyənləşdirilir".

Mütəxəssisin sözlərinə görə, skolioz zamanı dörd əyilmə dərəcəsi yaranır. Birinci halda 10, ikincidə 25, üçüncüdə 40, dördüncü halda 40 dərəcədən yuxarı deformasiya müşahidə edilir.

Uşaqlarda skoliozun müalicəsi əsasən, konservativ və bəzən də cərrahi yolla aparılır. Konservativ müalicə zamanı birinci və ikinci dərəcə skolioz olan uşaqlara ağır əşyaları götürmək tövsiyə edilmir, düzgün hərəkət və yataq rejimi təyin olunur. Eyni zamanda bu cür proqressivləşmiş skoliozlarda uşaqlara müalicəvi bədən tərbiyəsi, masaj kursları, üzgüçülük və elektrostimulyasiya ampilpus aparatı təyin edilir.

Üçüncü və dördüncü dərəcəli skoliozlarda isə artıq cərrahi əməliyyatlara ehtiyac yaranır.

"Təxminən 10-14 yaşa qədər xəstənin cərrahi əməliyyata məruz qalması məsələsi dəqiq müəyyənləşməlidir. 17-18 yaş ərzində isə əməliyyat icra edilməlidir. Bu səbəbdən də hər bir valideyn bu mövzuda diqqətli olmalıdır. Zamanında addım atılmalıdır. Uşaqlarda kürək, körpücük sümüklərində assimmetriya, döş qəfəsində deformasiya, oma-qalça nahiyəsində deformasiya müşahidə edilərsə, mütləq həkimə müraciət edilməli, zamanında lazımi tədbirlər görülməlidir".

Bütün hallarda onurğa sütununda deformasiyaların yaranmaması üçün zamanında uşaqları düzgün oturmağa, düzgün yeriməyə, xüsusi ilə məktəb yaşlı uşaqlarda partada düzgün oturmaq kimi vərdişlər aşılamaq lazımdır.

İlkin səhiyyə xidməti göstərən tibb müəssisələrinə müraciət etməklə uşaqlarda skolioz və digər xəstəlikləri vaxtında müəyyənləşdirmək, yaranan problemlərin qarşısını almaq və effektiv müalicəsini həyata keçirmək mümkündür",-G. Acalova bildirib.

# Vidadi İsayevin rəhbərlik etdiyi rayonda böyük yeyinti

## Bərdə təhsili ilə bağlı mənimsəmə xəbərləri səngimir



***Təxminən bir ay öncə məlumat yayıldı ki, Qarabağ Regional Təhsil İdarəsi Bərdə Rayonu üzrə Təhsil Sektorunda külli miqdarda yeyintiyə görə yoxlamalara başlayıb.***

İddia edilib ki, sektorun mühasibi 150 min manat mənimsəməyə yol verib.

Belə ki, analıq və əmək məzuniyyətinə çıxanların ödənişləri, eləcə də, əvəzçilik pulları az hesablanaraq mənimsənildiyi vurğulanıb.

Qarabağ Regional Təhsil İdarəsindən məsələ ilə bağlı oxu.az-a bildirilib ki, məlumat doğrudur və məsələ barədə idarə tərəfindən Baş Prokurorluğa müraciət olunub.

Vurğulanıb ki, idarə tərəfindən rayonlar üzrə mərkəzləşdirilmiş mühasibatlıqlarda yoxlama həyata keçirilib: "Yoxlama prosesi zamanı Bərdə rayonu üzrə mərkəzləşdirilmiş mühasibatlıqda əmək müqavilələsinə xitam verilmiş işçilərə son haqq-hesab dəfələrlə hesablanaraq dövlət büdcəsinə məxsus külli miqdarda pul vəsaitinin mənimsənildiyi müəyyənləşdirilib.

Məsələyə hüquqi qiymət verilməsi məqsədilə toplanmış sənədlər Bərdə Rayon Prokurorluğuna göndərilib".

"Unikal"ın məlumatına görə, Qarabağ Regional Təhsil İdarəsi üzrə Bərdə rayon Təhsil sektorunun müdiri Qurban Məmmədovdur. Təhsil naziri Emin Əmrullayev onu həmin vəzifəyə ötən ilin yayında təyin edib. Bu təyinatadək Q.Məmmədov Bərdə şəhər Akademik Zərifə Əliyeva adına Məktəb Liseydə direktor vəzifəsində çalışıb.

Xatırladaq ki, Bərdə rayonuna 2011-ci ildən bu yana Vidadi İsayev rəhbərlik edib. İsayev ölkə mediasında ən çox tənqid edilən, barəsində korrupsiya ittihamları səslləndirilən rayon rəhbərlərindən biridir. Onun adı hətta həbs ediləbiləcək icra başçıları sırasında göstərilib. 2020-ci ildə Vidadi müəllimin işdən kənarlaşdırıldığı barədə ölkənin bir sıra tanınmış media orqanları xəbər belə yaymışdılar, lakin həmin xəbər təsdiqini tapmamışdı. Buna baxmayaraq, V.İsayev indi də postundan kənarlaşdırılması gözlənilən rayon rəhbərləri siyahısında ilk sıralarda dayanır.

İsayevin Bərdəyə rəhbərlik etdiyi dövrdə ən çox korrupsiyalaşan sahələrdən birinin isə məhz təhsil sahəsi olduğu vurğulanır. Bu səbəbdən müxtəlif vaxtlarda həbslər də həyata keçirilib. Məsələn, 2020-ci ildə Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecinin direktoru Ələkbərov Xaləddin Qasım oğlunun və həmin kollecin əyani şöbəsinin müdiri vəzifəsində işləmiş Dursunov İlqar Tahir oğlunun qanunsuz əməlləri ilə əlaqədar keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmış, onların həmin vəzifələrdə işləyərkən 2019-2020-ci tədris ilində kollecdə təhsil alan 90 tələbədən imtahanlarda müsbət qiymətlərin yazılması və dərslərdə iştirak etmədən semestr imtahanlarına buraxılması müqabilində 2019-cu il dekabrın ortalarından 2020-ci ilin yanvar ayının sonunadək olan müddətdə kollecin inzibati binasında ümumilikdə 12 min 100 manat məbləğdə pul vəsaitini almalarına əsaslı şübhələr müəyyənləşdirilmişdi. Nəticədə Xaləddin Ələkbərov və İlqar Dursunov barələrində məhkəmə qərarları ilə həbs qətimkan tədbiri seçilmişdi.

Yaxud, 2021-ci ildə Bərdə Peşə Liseyinin direktoru vəzifəsində işləyən Şükürov Şəmil Məmməd oğlunun qanunsuz əməlləri barədə daxil olmuş məlumat əsasında həyata keçirilmiş əməliyyat tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanmışdı. Aparılmış istintaq-əməliyyat tədbirləri ilə qeyd olunan vəzifədə işləyərkən Şəmil Şükürovun həmin liseyin digər vəzifəli şəxsləri ilə qabaqcadan əlbir olaraq 2012-2021-ci illər ərzində liseydə təhsil alan çoxsaylı tələbələrin dərsdə iştirak etməmələri, onlara ümumi himayədarlıq göstərilməsi müqabilində həmin şəxslərə məxsus təqaüd kartlarını rəhbərlik etdiyi qurumun əməkdaşları vasitəsilə əldə edib kart hesablarına köçürülmüş təqaüdlərin Bərdə rayonu ərazisində yerləşən ayrı-ayrı bankomatlardan məxaric edilərək nağdlaşdırılması yolu ilə külli miqdarda pul vəsaitinin rüşvət qismində almasına əsaslı şübhələr yaranmış, nəticədə o, Cinayət Məcəlləsinin 311.3.3-cü (külli miqdarda rüşvət alma) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barəsində Binəqədi rayon məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdi.

İddialar bu yöndədir ki, rayondakı əksər təhsil müəssisələrinin rəhbərləri İsayevə yaxın kadrlardır, bu səbəblərdən də özlərini "toxunulmaz" sayır və müxtəlif yeyintilərə, rüşvətalma hallarına yol verməkdən çəkinmirlər.

Son olaraq Bərdə rayon Təhsil Sektorunda 150 minlik yeyintinin ortaya çıxması bu rayonda sözügedən sahə ilə bağlı durumun ürəkaçan olmadığını ortaya qoyur. Aydın görünür ki, Təhsil Nazirliyi Bərdə təhsilindəki bu cür xoşagəlməz hallara son verilməsi üçün konkret, təsirli addımlar atmalıdır. Əks halda biz belə hallarla bağlı xəbərləri hələ çox oxumalı olacağıq...

**Toğrul Əliyev**

## 5.3.16. elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

müəssisələrində 60 və daha yuxarı yaşda olan şəxslərin sertifikatlaşdırmada iştirakı könüllü olacaq. Onu da əlavə edək ki, 5 290 nəfər müəllimin yaşı 60-ın üzərindədir.

Həmçinin dövlət məktəbəqədər təhsil müəssisələrində təhsilverənlər sertifikatlaşdırmadan keçəcəklər. Dövlət məktəbəqədər təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan, ali və orta ixtisas təhsilinə malik təhsilverənlərin peşəkarlıq səviyyəsi və peşə yararlılığı yoxlanılacaq.

# Müəllimlərin sertifikasiyası kütləviləşir

## Kamran Əsədov: "İkinci dəfə də sertifikasiyadan keçə bilməyən müəllimlər yenidən müraciət edib müəllim kimi fəaliyyət göstərə bilərlər"



***Azərbaycanda təhsil sahəsində aparılan islahatlar, müxtəlif təhsil proqramlarının hazırlanması ölkəmizdə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən amillərdəndir. Ötən ildən müəllimlərin sertifikasiyaya cəlb olunması da bu qəbildən görülən tədbirlərdəndir. Dünən elm və təhsil naziri Emin Əmrullayev keçirdiyi brifinqdə bildirdi ki, keçən il sertifikasiyadan kəsilmiş müəllimlər bu il yenidən uğursuz nəticə göstərsələr, onların əmək müqaviləsinə xitam veriləcək.***

Qeyd edək ki, ilk dəfə Azərbaycanda müəllimlərin sertifikasiyası 2022-ci ildə keçirilib. 11 min ibtidai sinif müəllimi bu prosesdə iştirak edib. Onlardan 2800-ü minimum keçid balını toplaya bilməyib. Nazirin sözlərinə görə, növbəti mərhələdə 33 mindən artıq müəllim sertifikasiyadan keçiriləcək. Əmək Məcəlləsində dəyişikliyə əsasən sertifikasiyadan ilk dəfə keçə bilməyən müəllimlərə yenidən şans veriləcək. Amma təkrar sertifikasiyadan keçə bilməyən müəllimlər işdən azad ediləcək. Elm və Təhsil Nazirliyindən verilən məlumata görə, ötən il sertifikasiyada uğursuz nəticə göstərən ibtidai sinif müəllimlərinin 22 faizi bu il yenidən sertifikasiyaya cəlb olunacaq. Onu da bildirək ki, ötən il imtahanlarda ibtidai sinif müəllimlərinin 78 faizi sertifikasiya imtahanlarında uğur qazanıb.

Təhsil üzrə ekspert Kamran Əsədov deyir ki, müəllimlərin sertifikasiyası onların ixtisas üzrə biliklərinin yoxlanılması xarakterini daşıyır. Həmsöhbətimiz deyir ki, bu, heç də həmin müəllimlərin bir daha bu peşədə çalışa bilməyəcəyi anlamına gəlmir. Belə ki, ikinci dəfə də sertifikasiyadan keçə bilməyən müəllimlər yenidən müraciət edib müəllim kimi fəaliyyət göstərə bilərlər. Ekspertin qənaətinə görə, əgər müəllimlər arasında sertifikasiyadan keçməyənlərin sayı çox olarsa belə bu müəllim çatışmazlığına səbəb olmayacaq: " Çünki, 2022-ci ildə dövlət orta ümumtəhsil müəssisələrində müəllim işləmək üçün 60 min nəfər elektron ərizə verib. Onlardan yalnız 8 mini işə qəbul ola bilib. Ümumilikdə Azərbaycanda ali və orta ixtisas təhsili məktəblərinin pedaqoji ixtisaslarını bitirmiş 90 min nəfər var ki, onlar hazırda işləmirlər. Ona görə də, təkrar sertifikasiyadan keçmədiyi üçün əmək müqavilələrinə xitam verilmiş müəllimlərin yerlərinə əvəzləyici müəllimlərin tapılmaması ilə bağlı problem yoxdur".

Qeyd edək ki, ibtidai sinif müəllimləri ilə yanaşı azərbaycan dili və ədəbiyyat müəllimlərinin də bir hissəsi sertifikatlaşdırmaya cəlb olunacaq. Digər fənn müəllimlərinə gəlincə, onların sertifikasiyaya nə vaxt cəlb olunacağı hələ bəlli deyil.

Sonuncu brifinqdə Emin Əmrullayev bu barədə məlumat veriləcəyini bildirib. Onun sözlərinə görə, bununla bağlı mərhələ-mərhələ addım atılacaq və bu barədə ictimaiyyətə məlumat veriləcək.

Xatırladaq ki, "Təhsil haqqında" qanuna təklif edilən dəyişiklikdə sertifikasiya ilə bağlı bir sıra məqamlar öz əksini tapıb. Dəyişikliyə görə, dövlət ümumi təhsil müəssisələrində ilk dəfə işə qəbul olunan təhsilverənlərin sertifikatlaşdırmadan keçməyəcəkləri ilə bağlı müddət azaldılıb. Əvvəl qüvvədə olan qanuna görə, dövlət ümumi təhsil müəssisələrində ilk dəfə işə qəbul olunan təhsilverənlər 5 il müddətində sertifikatlaşdırmadan keçirdilərsə, yeni dəyişikliyə əsasən, bu müddət 3 ilə endiriləcək. Başqa bir dəyişiklik təklifinə görə, dövlət ümumi təhsil

Dövlət məktəbəqədər təhsil müəssisələrində işləyən təhsilverənlər 5 (beş) ildə bir dəfə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən sertifikatlaşdırmadan keçəcəklər. Dövlət məktəbəqədər təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcək.

Sertifikatlaşdırmadan keçən şəxslərə 5 (beş) il müddətində dövlət məktəbəqədər təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ veriləcək.

Bununla belə, dövlət məktəbəqədər təhsil müəssisələrində 60 və daha yuxarı yaşda olan şəxslərin sertifikatlaşdırmada iştirakı könüllü olacaq. İlk dəfə işə qəbul olunanlar isə 3 il müddətində sertifikatlaşdırmadan keçməyəcəklər.

Eyni zamanda hamilə qadınlar, uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra 1 (bir) ildən az müddətdə müvafiq vəzifədə (peşədə) çalışan qadınlar (uşağını təkbaşına böyüdən kişilər) və azı üç dəfə sertifikatlaşdırmadan keçmiş şəxslər sertifikatlaşdırmadan keçməyəcəklər.

Üzrlü səbəblərdən sertifikatlaşdırmada iştirak etməyən və ya sertifikatlaşdırmadan keçməyən şəxslər 1 (bir) il müddətində iş yeri saxlanılmaqla, təkrar sertifikatlaşdırmada iştirak etmək hüququna malikdirlər. Təkrar sertifikatlaşdırmada iştirak etməyən şəxslər sertifikatlaşdırmadan keçməmiş hesab olunurlar.

Bununla əlaqədar "Məktəbəqədər təhsil haqqında" qanuna da müvafiq dəyişikliklər edilir. "Məktəbəqədər təhsil haqqında" qanuna əsasən, məktəbəqədər təhsil müəssisəsinin işçiləri Əmək Məcəlləsinə uyğun olaraq attestasiyadan keçirilir. Təklif olunan dəyişikliyə əsasən, sertifikatlaşdırmadan keçən işçilər istisna olmaqla, məktəbəqədər təhsil müəssisəsinin işçiləri Əmək Məcəlləsinə uyğun olaraq attestasiyadan keçiriləcək. Emin Əmrullayevin sözlərinə görə, növbəti 3 il ərzində məktəbəqədər təhsil üzrə pedaqoji və idarəetmə heyətindən 17 000 nəfərin sertifikatlaşdırmaya cəlb olunması əsas hədəflərdəndir.

Məlumat üçün bildirək ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan dövlət ümumtəhsil və dövlət peşə təhsil müəssisələrində çalışan təhsil işçilərinin aylıq vəzifə maaşları fevralın 1-dən etibarən orta hesabla 10 faiz artırılıb.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# Diplomatlara Böyük Qayıdış prosesi haqqında məlumat verildi

***ADA Universiteti, onun nəzdində fəaliyyət göstərən İnkişaf və Diplomatiya İnstitutu və Xarici İşlər Nazirliyi tərəfindən birgə təşkil olunan "Xəzər Hövzəsi Araşdırmalar Proqramı" çərçivəsindəki sessiyada Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Fuad Hüseynov ölkəmizdə fəaliyyət göstərən səfirlikləri təmsil edən xarici diplomatlar üçün "Azərbaycanda məcburi köçkünlər probleminin həlli - uzun müddətli məcburi köçkünlük və həsrətlə gözlənilən Qayıdış" mövzusunda mühazirə deyib.***

"Unikal" xəbər verir ki, diplomatlara Ermənistanın işğalçılıq və deportasiya siyasəti nəticəsində qaçqın və məcburi köçkün həyatı yaşamağa məruz qalmış 1 milyondan çox qaçqın və məcburi köçkünün yaşadığı məhrumiyyətlər, çətinliklər haqqında məlumat verilib. Bildirilib ki, doğma yurdlarını tərk etməyə məcbur olmuş soyaşlarımız çətin və ağır şəraitdə yarımçıq binalar, zirzəmilər, yataqxanalarda məskunlaşıb. Qaçqınların və məcburi köçkünlərin dövlət qayğısı ilə əhatə olunduğu, bu kateqoriyadan olan şəxslərin yaşayış şəraitinin yaxşılaşdırılmasına, sosial müdafiəsinin səmərəli təşkilinə Prezident İlham Əliyevin xüsusi diqqət yetirdiyi, Birinci vitse-prezident Mehriban Əliyevanın onların problemlərinin həllinə daim həssaslıq və təsirli dəstək göstərdiyi qeyd edilib.

Bildirilib ki, hazırda dövlətin qarşısında məcburi köçkünlərin dayanıqlı məskunlaşmasının təmin edilməsi kimi mühüm vəzifə dayanır. Bu da, 2020-ci ildə baş vermiş Vətən müharibəsində ölkəmizin qazandığı qələbədən sonra mümkün olub. Qarabağ və Şərqi Zəngəzurda 30 illik işğal dövründə dağıdılmış yaşayış sahələri, inzibati binalar, yollar, kommunikasiya xətləri bərpa olunur, irimiqyaslı layihələr həyata keçirilir. İşğal dövründə Ermənistanın hərbi təyinatı olmayan torpaqları belə minalaması məcburi köçkünlərin Böyük Qayıdış prosesini ləngidir. Beynəlxalq ictimaiyyət həm doğma yurdlarına qayıdacaq sakinlərin, həm də işğaldan azad olunmuş ərazilərdə peşə fəaliyyətini yerinə yetirən şəxslərin təhlükəsizliyinin təmin edilməsi üçün Ermənistanı mina xəritələrini verməyə məcbur etməlidir.

Məcburi köçkünlərin beynəlxalq hüququn prinsiplərinə əsasən, doğma yurdlarına könüllü, təhlükəsiz və ləyaqətlə qayıdışının təmin edilməsinin dövlətimiz üçün prioritet olduğu diqqətə çatdırılıb. Soydaşlarımızın rahat, müasir tələblərə cavab verən mənzillərlə təmin olunması üçün zəruri olan bütün tədbirlər görülür. Yaşayış yerləri bərpa olunan zaman "ağıllı kənd", "ağıllı şəhər", "yaşıl zona" konsepsiyalarına üstünlük verilir. Artıq 420 məcburi köçkün Zəngilan rayonun Ağalı kəndində bu konsepsiya əsasında inşa olunmuş mənzillərində yaşayır. Bildirilib ki, növbəti aylarda da məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə köçürülməsi davam edəcək.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib, qonağı maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

## Bu bələdiyyə daha çox vəsait toplayıb



***Rayonda fəaliyyət göstərən 17 bələdiyyə tərəfindən 2023-cü ilin yanvar-mart aylarında 54,4 min manat, 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 10,7 min manat və ya 24,4 faiz çox vəsait toplanıb.***

2022-ci ilin yanvar-mart ayları ilə müqayisədə fiziki şəxslərin torpaq vergisi 23,1 faiz, fiziki şəxslərdən əmlak vergisi 12,3 faiz, bələdiyyə əmlakının özgəninkiləşdirilməsindən gəlirlər 68,1 faiz, digər vergi olmayan daxilolmalar 2,5 dəfə artmış, bələdiyyə əmlakının icarəyə və istifadəyə verilməsindən əldə olunan gəlirlər 21,2 faiz azalmış, avtomobillərin dayanacaqları üçün ödənişlər əvvəlki illə müqayisədə eyni olub.

Bələdiyyə üzrə büdcə xərclərinin 75,2 faizi yerli özünüidarəetmə orqanlarının saxlanılmasına, 1,7 faizi sosial-müdafiə və sosial-təminat xərclərinə, 4,6 faizi mənzil-kommunal təsərrüfatı xərclərinə, 18,3 faizi digər xərclərə sərf edilib.

*Emin Qəhrəmanov,*
*Ucar Statistika İdarəsinin baş məsləhətçisi*

## Nazirliyin Kollegiyasının yeni tərkibi təsdiqləndi

***Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyinin Kollegiyasının yeni tərkibi təsdiq edilib.***

"Unikal" xəbər verir ki, müvafiq qərarla nazirliyin kollegiya üzvlərinin sayı beş nəfərdən ibarət müəyyənləşdirilib.

Yeni tərkibdə muxtar respublikanın səhiyyə naziri kollegiyanın sədri, onun birinci müavini və digər müavini, eləcə də nazirliyin Tibbi Yardımın Təşkili Şöbəsinin müdiri və Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkimi kollegiyanın üzvləri kimi təsdiq olunublar.

## Siyəzəndə iqtisadiyyatın əsas sahələrində artım qeydə alınıb

***2023-cü ilin yanvar-mart aylarında Siyəzən rayonu üzrə iqtisadiyyatın əsas sahələrində ümumi məhsul buraxılışı 80327,2 min manat təşkil etmiş və 2022-ci ilin müvafiq dövrünə nisbətən faktiki qiymətlərlə 12,6 faiz, müqayisəli qiymətlərlə 1,4 faiz artıb.***

İstehsal edilmiş ümumi məhsul və göstərilmiş xidmətlərin həcmi sənayedə 5987,2 min manat (7,5 faiz), kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 60938,6 min manat (75,9 faiz), tikintidə 3049,2 min manat (3,8 faiz), nəqliyyat və anbar təsərrüfatı sahəsində 585,4 min manat (0,7 faiz), informasiya və rabitə sahəsində 249,2 manat (0,3 faiz), ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində 9517,6 min manat (11,8 faiz) təşkil etmişdir. Məhsul buraxılışının həcmi 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə sabit qiymətlərlə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 35,7 faiz, sənayedə 13,6 faiz, nəqliyyat və anbar təsərrüfatı sahəsində 1,7 faiz, informasiya və rabitə sahəsində 27,1 faiz artmış, ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində 2,2 faiz, tikintidə 81,9 faiz azalıb.

2023-cü ilin yanvar-mart aylarında məhsul və xidmətlərin 91,1 faizi iqtisadiyyatın qeyri-dövlət sektoruna aid olmuş və 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 43,5 faiz artmışdır. Əhalinin hər nəfərinə düşən ümumi məhsul və xidmətlər 1932,9 manat təşkil edib.

*Kamil Xəlilov,*
*Siyəzən Rayon Statistika İdarəsinin rəisi*

# Tibb müəssisələrinin qiymətləndirilməsinin nəticələri açıqlandı

***İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin yaratdığı xüsusi komitə "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" (TƏBİB) publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin keçən il fəaliyyəti üzrə qrup və kateqoriyaları yenidən qiymətləndirib.***

Agentlikdən "Unikal"a verilən məlumata görə, qiymətləndirmə tibb müəssisələrində qabaqcıl iş üsullarının tətbiqi, kadr potensialının gücləndirilməsi, tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi, tibb müəssisələrində çalışan heyətin layiqli həyat səviyyəsinə uyğun əməkhaqqı ilə təmin edilməsi məqsədlərini daşıyır və tibb müəssisələri arasında sağlam rəqabət mühitinin inkişaf etdirilməsinə xidmət edir.

Tibb müəssisələrinin dəyərləndirilməsi günlük orta müraciətlərin, illik stasionar cərrahi əməliyyatların sayı, tibbi avadanlıqların mövcudluğu kimi kəmiyyət meyarları və xəstələrin çarpayıda keçirdiyi orta günlərin, həkim ixtisaslarının, xaricdə təhsil almış həkim mütəxəssislərin sayı, laboratoriyalarda aparılan analizlərin çeşidlilik səviyyəsi kimi keyfiyyət meyarları üzrə həyata keçirilir.

Qiymətləndirmənin nəticələrinə gəldikdə, vətəndaşlara göstərilən tibbi xidmətlərin əlçatanlığı və keyfiyyətinin yüksəldilməsi baxımından 2021-ci illə müqayisədə 2022-ci ildə tibb müəssisələrinin fəaliyyətində mühüm irəliləyişlər qeydə alınıb və onlar qrup və kateqoriya göstəriciləri üzrə yüksəlibər.

Belə ki, Abşeron Rayon Mərkəzi Xəstəxanasının qrup və kateqoriyası 2B-dən 3B-yə yüksəlib. Müəssisənin geniş spektrli xidmət çeşidinə malik olması, xidmət göstərdiyi ərazinin genişliyi və sakinlərinin sayının çoxluğu nəzərə alınaraq o, ümumi profilli tibb müəssisəsi statusundan çoxprofilli tibb müəssisəsi statusuna keçid alıb. Saray Modul tipli Xəstəxananın birləşdirilməsi hesabına Abşeron Rayon Mərkəzi Xəstəxanasında çarpayıların sayı 180-dən 372-yə yüksəlib, 2021-ci illə müqayisədə pasiyentlərə göstərilən ambulator və stasionar xidmətlərin, habelə aparılmış cərrahi əməliyyatların sayı artıb.

Quraşdırılmış əlavə avadanlıqlar hesabına isə tibb müəssisəsinin laboratoriya səviyyəsi 3-cü səviyyədən 4-cü səviyyəyə yüksəlib ki, bu da öz növbəsində vətəndaşların daha geniş laborator xidmətlərdən istifadə etməsinə imkan verir.

Şəmkir Rayon Mərkəzi Xəstəxanası və Quba Rayon Mərkəzi Xəstəxanasının kateqoriyaları isə 2B-dən 2A-ya yüksəlmişdir. Şəmkir Rayon Mərkəzi Xəstəxanasında əlavə avadanlıqların quraşdırılması, cərrahi əməliyyatların sayının artması, habelə "Xəstələrin çarpayıda keçirdiyi orta günlərin sayı" və "İcbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlərin reyestr məlumatlarında xəta payı" kimi keyfiyyət göstəricilərinin yaxşılaşması müəssisənin kateqoriyasının artmasına səbəb olub.

Quba Rayon Mərkəzi Xəstəxanasının kateqoriyasında baş vermiş yüksəliş isə COVID-19-la mübarizə aparan tibb müəssisəsi statusunun ləğv olunması nəticəsində günlük müraciətlərin orta göstəricisinin, həkim personalının sayının artması, "Xəstələrin çarpayıda keçirdiyi orta günlərin sayı" və "İcbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlərin reyestr məlumatlarında xəta payı" keyfiyyət göstəriciləri yaxşılaşması ilə əlaqəlidir.

Qaradağ və Pirallahı Tibb Mərkəzləri və Qobustan Rayon Mərkəzi Xəstəxanasında "Xəstələrin çarpayıda keçirdiyi orta günlərin sayı" və "İcbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlərin reyestr məlumatlarında xəta payı" keyfiyyət göstəricilərinin yaxşılaşması, həmçinin Qobustan Rayon Mərkəzi Xəstəxanasında bu göstəricilərlə yanaşı həkim sayının artması hesabına sözügedən tibb müəssisələrinin kateqoriyalarının 2D-dən 2C-yə yüksəlməsi ilə nəticələnib.

Qiymətləndirmənin yekunlarına əsasən müəyyənləşən qrup və kateqoriyaları üzrə tibb müəssisələrinin heyəti həvəsləndirici əlavələr ilə təmin olunurlar. Belə ki, tibb müəssisəsinin fəaliyyət göstəriciləri həvəsləndirici əlavələr ilə düz mütənasiblik təşkil edir. Tibb və qeyri-tibb personalının aldığı həvəsləndirici əlavələrin məbləği tibb müəssisələrinin fəaliyyət göstəricilərindən asılı olaraq dəyişir. Sözügedən proses "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində çalışan səhiyyə işçilərinin əməyinin ödənilməsi Qaydası" ilə tənzimlənir. Qaydaya əsasən tibb müəssisələrində çalışan işçilərinin əməkhaqlarının formalaşdırılmasında ədalətlilik prinsipinin təmin olunması məqsədilə tibb müəssisələri 3 qrupa və hər qrup üzrə müvafiq olaraq A, B, C, D kateqoriyalarına bölünürlər. I qrup - ilkin səhiyyə xidməti göstərən tibb müəssisələri, II qrup - ümumi profilli tibb müəssisələri, III qrup - çoxprofilli və elmi-tədqiqat tibb müəssisələrini əhatə edir.



Nümunə olaraq xəstəxananın qrupunda baş vermiş dəyişikliyin (məsələn, xəstəxana qrupu 2B-dən 3B-yə yüksəlmişsə) həkim-pediatrının əməkhaqqısına etdiyi təsirə nəzər salaq: Ambulator fəaliyyət üzrə həkim-pediatrın 9-cu dərəcə aylıq vəzifə (tarif) maaşı 478 AZN, aylıq sabit həvəsləndirici əlavəsi 800 AZN və işin nəticələrinə görə aylıq həvəsləndirici əlavəsi 300 AZN (rəqəm şərtidir, məbləğ aylıq pasiyent qəbuluna görə dəyişir) təşkil edir. 2B kateqoriyalı xəstəxanada həkimin işin nəticəsinə görə həvəsləndirici əlavəsi 1.2 əmsalı ilə hesablanırdısa, dəyişiklikdən sonra, yeni 3B kateqoriyalı xəstəxanada 1.4 əmsalı ilə hesablanır. Beləliklə, 2B kateqoriyası üzrə həkimin aylıq ümumi əməkhaqqısı 1638 AZN (478+800+300*1.2), 3B kateqoriyası üzrə isə 1698 AZN (478+800+300*1.4) təşkil edəcək.

# Əkin sahələrinin suvarılması üçün tədbirlər görülür



*Füzulidə hidroqovşaqdan 5 rayon suvarma suyu ilə qidalanır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Mil-Muğan Hidroqovşağı İstismarı İdarəsi Azərbaycan Respublikası və İran İslam Respublikası ərazisində yerləşən 120 min hektar ərazinin suvarılmasına xidmət edir.*

İdarənin balansında olan əkin sahələrinin suvarılması üçün 3 kanaldan istifadə olunur. Bunlar Baş-Mil kanalı, Yuxarı-Mil kanalı və Yeni Xanqızı kanallarıdır. Suvarma kanallarında mütəmadi olaraq lildən təmizlənmə işləri aparılır ki, bu da suvarma suyunun maneəsiz və itkisiz olaraq əkin sahələrinə çatdırılmasına şərait yaradır. Hazırda bu istiqamətdə işlər davam edir. Görülən işlər nəticəsində əkin sahələrinin suvarılması yaxşılaşdırılır.

Mil-Muğan Hidroqovşağı İstismarı İdarəsinin balansında olan Baş-Mil kanalının uzunluğu 37.2 km-dir. Füzuli və Beyləqan rayonları ərazisindən keçən kanaldan Yuxarı-Mil və Yeni Xanqızı kanalları ayrılır. Yuxarı-Mil kanalı Füzuli, Xocavənd və Ağcabədi rayonlarının torpaq sahələrini suvarma suyu ilə təmin edir. Yeni Xanqızı kanalı isə Beyləqan və Ağcabədi rayonlarının əkin sahələrinin su təminatını yaxşılaşdırır. Hidroqovşaq üzərində suyu vaxtında ərazilərə çatdırmaq üçün 6 ədəd seqmentvari qapı var ki, bu qapıların da hər birinin su buraxma qabiliyyəti 400 kub metr saniyədir. Bundan başqa Hidroqovşaqdan ayrılan suyun enerjisindən Füzuli Su Elektrik Stansiyasının fəaliyyətində də istifadə olunur.

Qeyd edək ki, Hidroqovşaq Baş-Mil kanalı, Yuxarı-Mil kanalı və Yeni Xanqızı kanalları vasitəsilə 5 rayona xidmət edir. Hazırda həmin rayonlarda əkilən müxtəlif növ kənd təsərrüfatı təyinatlı bitkilərin suvarılması davam edir.

Qaxda dağ çaylarında mühafizə işləri görülür. Dilqəm Şərifov bildirib ki, respublikanın bir çox ərazisində olduğu kimi şimal-qərb bölgəsində də son günlər hava şəraiti tez-tez dəyişir. Yağıntılı havanın artması, çaylarda suyun səviyyəsinin çoxalmasına səbəb olub.

Sel gətirən dağ çayların çoxluq təşkil etdiyi Qax rayonunda hazırda ola biləcək sel təhlükəsinin qarşısını almaq məqsədilə qabaqlayıcı tədbirlər görülür. Bunun üçün Qax Suvarma Sistemləri İdarəsinin texnikaları bu işlər üçün səfərbər edilib. Hazırda Kürmük çayında məcra təmizləmə işləri həyata keçirilir. Bununla yanaşı rayon ərazisindən axıb keçən digər dağ çaylarında da bu işlər yerinə yetirilir. Ətraf ərazilərin sel sularından mühafizəsini təşkil etmək üçün daş-beton bəndlərin çəkilişi və təmiri də aparılır.

Selə qarşı mübarizə tədbirləri ilə bərabər Qax Suvarma Sistemləri İdarəsi tərəfindən meliorativ tədbirlər də uğurla davam etdirilir. Suvarma suyunun əkin sahələrinə normal qaydada çatdırılmasını təmin etmək üçün suvarma kanalları mütəmadi olaraq lildən təmizlənir. Bundan başqa su itkisinin qarşısının alınması istiqamətində torpaq məcralı kanallar beton üzlüyə alınır.

Görülən işlərin nəticəsi olaraq əkin sahələrinin suvarılması ardıcıl həyata keçirilir. Fermerlər sahələrin daimi su ilə təmin edə bilirlər. Hazırda Qax rayonunda əkilən müxtəlif təyinatlı kənd təsərrüfatı təyinatlı bitkilərin suvarılması normalara uyğun davam edir.

Qeyd edək ki, Qax rayonu ərazisində suvarılan sahələrə xidmət edən əsas mənbələr - Kürmük çayı, Qum çayı, Ləkit çayı ,Zərnə çayı, Qapıçay çayı, Duruca çayı və qaynama qara sulardır.

*Hüseyn İsgəndərov*

# Vətən onu unutmaz

*İkinci Qarabağ müharibəsində öz dədə-baba torpaqlarını mənfur düşmən tapdağından azad etmək üçün minlərlə qorxmaz, ürəkli vətən övladı ayağa durdu. 2001-ci ildə Lənkəran rayonunun Osakücə kəndində dünyaya göz açan Mehdi Sübhi oğlu Qənbərli də öndə gedən qeyrətli igidlərdən oldu.*



Vətəni canından artıq sevən bu, 19 yaşlı gənc mübarizə meydanında düşmənə qarşı qatıldığı bütün döyüşlərdə böyük şücaət göstərir, ölümü əsl qəhrəmanlıq məktəbi kimi tarixə yazılır. Həm də milyonların ürəyində özünə əbədi məkan quran Lənkəran elinin şəhid oğlu "Vətən uğrunda", Füzulinin və Cəbrayılın azadlığına görə medallarına layiq olur.

Mehdi Qənbərli orta məktəbi bitirəndə el-obada onun yüksək mədəniyyəti, əxlaqı, Vətəninə, yurduna sevgisi yaşıdlarına nümunə göstərilir. Həyatda birinci amalı yağı düşməndən qisas almaq olan Mehdi 2019-cu ilin oktyabr ayında həqiqi hərbi xidmətdə yola düşür. Müqəddəsliyinə tapındığı doğma Azərbaycanı göz bəbəyi kimi qorumaqla bərabər, bir qayda olaraq erməni dığaları ilə döyüşə can atır. Əsgər yoldaşlarına da həmişə bildirir ki, Qarabağı düşmən tapdağından təmizləmək, bu yolda şəhid olmaq bizim şərəfli borcumuzdur. Hərbin sirlərini mükəmməl öyrənməklə qisas gününə hazır durmalıyıq.

Nəhayət ki, minlərlə qeyrətli Vətən övladların intizarla gözlədiyi gün gəlir. Erməni faşistlərin sentyabrın 27-dən cəbhə xətti boyunca Azərbaycanın hərbi mövqelərinin və yaşayış məntəqələrinin ağır artilleriya atəşinə tutmasına cavab olaraq şanlı ordumuz Ali Baş Komandanın əmri əsasında əks-hücuma başlayır. Əsgər Mehdi Qənbərli ilk gündən müharibənin ən qaynar nöqtəsində işğalçı dığalara qarşı döyüşür. Yağıya qan udduran qəhrəman Vətənə, torpağa məhəbbəti sayəsindən neçə-neçə ağır sınaqdan üzüağ çıxır. Hər dəfə səngərə qələbəyə olan inamla girir, Cəbrayılda, Füzulidə yağıya ciddi itkilər verir. Oktyabrın 5-i Mehdinin son döyüş günü olur. Horadiz uğrunda gedən qanlı savaşında sözün əsl mənasında torpaq uğrunda can qoyub qəhrəmancasına şəhidlik zirvəsinə ucalır.

*Zəfər Orucoğlu, AJB üzvü*



# Bu ilin birinci rübündə Abşeronun "Sosial-iqtisadi inkişafı" statistikası

***Artıq iqisadi inkişafının sürətli mərhələsini yaşayan ölkəmiz dünya ölkələri arasında öz sözünü deyən, ölkələrin sıx iqtisadi və siyasi əməkdaşlığına mühüm əhəmiyyət verdiyi dövlətlərdən birinə çevrilmişdir. Bu iqtisadi, sosial gücü özündə saxlamaq və daha da inkişaf etdirmək üçün dövlət başçısı ölkənin bütün regionlarında iqtisadiyyatın çoxsahəli inkişafına xüsusi diqqət yetirir.***

İqtisadiyyatımızın inkişafında Abşeron rayonu da əhəmiyyətli inkişaf potensialına malikdir. Belə ki, rayonda fəaliyyət göstərən sənaye müəssisələri tərəfindən rüb ərzində 189.7 milyon manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. Sənayenin inkişafında qeyri-dövlət sektorunun fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Qeyri-dövlət subyektləri tərəfindən hesabat dövrü ərzində 157.9 milyon manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da ümumi məhsulun 83.2 faizi qədərdir.

Rayonun sosial-iqtisadi infrastruktur sahələrindən biri olan nəqliyyat sektoru da cəmiyyətin inkişafında mühüm rol oynayır. Dövr ərzində fiziki şəxslər tərəfindən yük və sərnişin daşınmasından əldə olunan gəlir 0.9 milyon manat olmuşdur.

Hesabatların təhlilindən məlum olur ki, rayonun iqtisadi inkişafında rabitə və informasiya sahəsinin də əhəmiyyətli yeri var. Belə ki, hesabat dövründə müəssisə və təşkilatlara, həmçinin əhaliyə faktiki qiymətlərlə 5.7 milyon manatlıq və ya 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 14.6 faiz çox rabitə xidməti göstərilmişdir. Əldə olunan gəlirin 53.2 faizi qeyri-dövlət sektorunun payına düşür.

İlin birinci rübündə rayonda 41.2 milyon manatlıq investisiya qoyuluşu olmuşdur ki, bu investisiyanın 38.4 milyon manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir.

İlk üç ay ərzində əhaliyə pərakəndə ticarət və iaşə şəbəkələrindən 201.8 milyon manata bərabər istehlak malları satılmış və iaşə xidmətləri göstərilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 36.9 faiz çoxdur. Əhaliyə göstərilən ödənişli xidmətin dəyəri isə 31.0 milyon manat olmuş, bunun da 8.8 milyon manatı dövlət, 22.2 milyon manatı isə qeyri-dövlət mülkiyyətinə məxsus təşkilatlar tərəfindən əldə edilmişdir.

2023-sü ilin yanvar-mart aylarında 546.5 hektar sahədə yazlıq bitkilər əkilmişdir. Rayonda tərəvəz əkinində əhəmiyyətli artım müşahidə edilərək ötən ilin müvafiq dövründən 5.9 faiz çox olmaqla 523.5 hektar sahədə əkin aparılmışdır.

Rayonun kənd təsərrüfatı müəssisələrində, əhali və kəndli fermer təsərrüfatlarında cari il aprel ayının 1-i vəziyyətinə 23346 baş iribuynuzlu mal-qara, o cümlədən 15164 baş inək və camış, 105152 baş isə qoyun və keçi mövcud olmuşdur. Təqdim olunan statistik məlumatlara və müvafiq hesablamalara görə diri çəkidə 3564 ton ət, 10460 ton süd istehsal edilmişdir.

2023-cü il mart ayının 1-i vəziyyətinə Abşeron rayonunda iqtisadiyyatın bütün sahələrini əhatə etməklə faktiki işləyənlərin sayı 38787 nəfər olmuş, bundan 13379 nəfəri dövlət, 25408 nəfəri isə qeyri-dövlət sektorunu əhatə etmişdir. Hesablanmış əməkhaqqı fondu 529319.1 min manat olmuşdur. Rayon üzrə bir işçiyə düşən orta aylıq əməkhaqqı 682.3 manat təşkil etmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə faktiki işləyənlərin orta sayı 9.0 faiz, orta aylıq əməkhaqqı isə 14.6 faiz artmışdır.

Rayonda sosial sahənin inkişafı da yüksək səviyyədə təmin olunur, quruculuq-abadlıq işləri davam etdirilir.

*Təvəkkül Mirzəyev,*
*Abşeron Rayon Statistika İdarəsinin rəisi*

# AKP yeni hökumət üçün namizədlərin seçilməsinə başlayıb



***Türkiyənin yeni Nazirlər Kabineti iyun ayının 5-dən gec olmayaraq işə başlayacaq.***

"Unikal" Türkiyə mətbuatına istinala xəbər verir ki, böyük ehtimalla hazırkı milli müdafiə naziri Hulusi Akar, ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Murat Kurumla əmək və sosial müdafiə naziri Vedat Bilgin öz vəzifələrində qalacaqlar.

AKP ölkədə prezident seçkilərinin 14 mayda keçirilmiş birinci turundan sonra yeni hökumət üçün namizədlərin seçilməsinə başlayıb.

Türkiyə KİV ölkənin XİN rəhbəri Mövlud Çavuşoğlu və daxili işlər naziri Süleyman Soylunun da hökumətdə qala biləcəyi barədə məlumat dərc edib.

***Ağarza***

# "Putin cəmi iki nəfərə hörmət edir, onlardan biri Ərdoğandır" - KQB zabiti



***"Rusiya lideri Vladimir Putin dünyada iki nəfərlə ehtiyatla davranırsa, onlardan biri Ərdoğandır".***

"Unikal" xəbər verir ki, bunu keçmiş KQB və Rusiya Xarici Kəşfiyyat Xidmətinin zabiti Sergey Jirnov yerli KİV-ə müsahibəsində deyib.

Onun sözlərinə görə, Rusiya prezidentinin hörmət etdiyi nadir insanlardan biri də Türkiyə lideri Rəcəb Tayyib Ərdoğandır. Putinin Ərdoğana hörməti 2015-ci ilin noyabrında Türkiyənin Rusiya qırıcısını vurması ilə ən yüksək həddə çatıb.

Keçmiş KQB zabiti əlavə edib ki, Putin Ərdoğandan başqa yalnız Si Cinpinqdən qorxur və ona hörmət edir.

***Gülayə***

# Qalmaqallı jurnal Türkiyə liderini hədəfə aldı - Kalından cavab

***Məhəmməd peyğəmbəri təhqir edən karikaturaları ilə tanınan Fransanın "Charlie Hebdo" jurnalının sonuncu buraxılışında prezident Rəcəb Tayyib Ərdoğan hədəfə alınıb.***

Modern.az xəbər verir ki, Ərdoğanın hamamda təsvir edildiyi karikatura jurnalın son buraxılışının üz qabığında yerləşdirilib.

Qalmaqallı jurnal "Cloclo" ləqəbli fransız müğənni Klod Fransuanın hamamda olarkən elektrik cərəyanı vurması nəticəsində ölməsinə eyham vurub: "Cloclo kimi bizi ondan yalnız tale xilas edəcək", - deyə yazıb.

Türkiyə Prezidentinin sözçüsü İbrahim Kalın buna sərt reaksiya verib. ""Charlie Hebdo" kimi əski parçası olan jurnal əgər narahat olubsa, deməli, doğru yoldayıq. Pislik bəzən belə olur, yaxşılara yol göstərir. Türk milləti mayın 28-də keçiriləcək ikinci tur seçkilərində daha yüksək səslə jurnala ən yaxşı cavabı verəcək", - Kalın deyib.

# "Rusiya Baxmut şəhərinin 99%-nə nəzarət edir" - KİV

***Rusiya Silahlı Qüvvələri Baxmut şəhərinin 99%-nə nəzarət edir, şəhərin tam nəzarət altına alınmasına cəmi bir neçə gün və ya saat qalıb.***

"Unikal" xəbər verir ki, bu barədə Almaniyanın "Bild" qəzeti məlumat yayıb. Bildirilir ki, Ukrayna bölmələri hazırda 20-yə yaxın binanı saxlayan Baxmutun yalnız bir küçəsinə nəzarət edir. "Ukrayna Silahlı Qüvvələrin vəzifəsi indi şəhəri saxlamaq deyil, rus qoşunlarının Baxmutdan qərbə doğru irəliləməsinin qarşısını almaqdır", - KİV qeyd edib.

ABŞ-ın "The New York Times" qəzeti də yazıb ki, Baxmutda vəziyyət o qədər fəlakətlidir ki, Ukrayna Silahlı Qüvvələrinə yalnız könüllülər göndərilir.

***Gülayə Mecid***

# Putinin Qara dənizdə gizli bunkeri ortaya çıxdı

***Rusiya və Ukrayna arasında müharibə davam edərkən, Rusiya prezidenti Putinin Qara dəniz sahilindəki gizli bunkerin görüntüləri ortaya çıxıb.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ-ın "Business Insider" nəşri araşdırma aparıb. Belə ki, nəşr milyard dollarlıq yaşayış kompleksinin təfərrüatlarını paylaşaraq, iqamətgahda qəlyan salonu, şərab zirzəmisi, kilsə, buz və helikopter meydançaolduğunu yazıb.



Yayımlanan sənədlərdə lüks iqamətgahın altında gizli liftin olduğu və 50 metr aşağı enərək Qara dəniz sahilinə çıxışı təmin etdiyi bildirilib: "Memarlıq təsvirlərinə görə, tunellər çox qalın betondan hazırlanır və təmiz su və təmiz hava təmin edilir. Bunkerdə qalan VIP-lər günlərlə, hətta aylarla sağ qala bilirlər".

Putinin iqamətgahının altındakı uzun tunellər 3D rəsmlərdə əks olunub. Xəritə və çertyojlarda tunellərin uzunluğunun 40-60 metr olduğu bildirilərkən, eninin 6 metr olduğu da qeyd olunub.

***Gülayə Mecid***

# Tramp və Baydenin əsas rəqibi bəlli oldu

***ABŞ-nin Florida ştatının qubernatoru Ron DeSantis 2024-cü ildə prezidentliyə namizəd olacaq.***

"Unikal" xəbər verir ki, bu barədə "The Wall Street Journal" qəzeti məlumat yayıb.

Nəşr siyasətçinin növbəti həftə namizədliyini rəsmən elan edəcəyini bildirib: "Florida qubernatoru Ron DeSantis gələn həftə rəsmi olaraq prezidentlik yarışına qatılacaq".

Qeyd edək ki, ABŞ-də növbəti prezident seçkiləri 2024-cü ilin noyabrına təyin edilib.

Respublikaçı Nümayəndə DeSantis partiyanın yenidən namizədliyi uğrunda eks-prezident Donald Trampın əsas rəqibi kimi görünür.

***Ağarza Elçinoğlu***



# Ermənistanda narkotikdən istifadə orduya da keçib

***Ermənistanda narkotiklərdən istifadə edənlərin sayı 95 faiz artıb.***

"Unikal" xəbər verir ki, bu barədə Erməni KİV-də rəsmi məlumat yayılıb. Bildirilib ki, Ermənistanda fəaliyyət göstərən 3000-ə qədər Teleqram kanalı narkotiklərin yayılması ilə məşğuldur. Artıq məktəblərdə, sinif otaqlarında narkotiklər yayılır. Narkotik ticarətinin artıq orduya da sızdırılması barəsində məlumatlar var.



# "Putini Dostoyevskinin qəhrəmanı kimi görmək lazımdır" - Kissincer

***Rusiya prezidenti Vladimir Putini Fyodor Dostoyevskinin əsərlərinin qəhrəmanı kimi görmək lazımdır.***

"Unikal" xəbər verir ki, bunu ABŞ-ın keçmiş dövlət katibi Henri Kissincer "The Economist" jurnalına müsahibəsində deyib. Onun sözlərinə görə, Rusiya ilə Avropa arasında ikitərəfli münasibətlər var: bir tərəfdən Moskva Avropa ölkələrindən təhlükə hiss edir, digər tərəfdən onun Avropa ilə unikal mədəni əlaqələri var.

"Rusiya prezidentini "öz xalqına dair bütün ziddiyyətləri və şübhələri ilə" Dostoyevskinin obrazı kimi qəbul etmək lazımdır", - Kissincer izah edib.

Xatırladaq ki, bu ilin yanvar ayında Putin ölkənin dünya mədəniyyətindən imtina etmək istəmədiyini açıqlamışdı.

***Gülayə Mecid***



# "Biz Türkiyədə güclü bir demokratiya görməyə davam etmək istəyirik" - Ağ Ev

***"Türkiyədəki seçkiləri kimin qazanmasından asılı olmayaraq, Bayden administrasiyası seçilmiş hökumətlə işləməyə davam edəcək".***

"Unikal" xəbər verir ki, bunu Ağ Ev Türkiyədəki prezident seçkiləri ilə bağlı açıqlamasında deyib.



Daha əvvəl ABŞ rəsmilərinin prezident seçkiləri ilə bağlı açıqlamalarına qatılan ABŞ-ın milli təhlükəsizlik müşaviri Sullivan "Bayden administrasiyası Türkiyədəki seçkilərdə kim qalib gəlsə, onunla işləməyə davam edəcək"-deyə bildirib.

Sullivan həmçinin qeyd edib ki, ABŞ Türkiyədə güclü demokratiya görməkdə davam etmək istəyir.

# "Qarabağ"dan 25 xal geri qalmaq uğursuzluq yox, "Neftçi" adına faciədir"



***"Son oyunların nisbətində "Neftçi" autsayderdir. Baş məşqçi Regeqampf nə qədər bunu turnir cədvəlində xala ehtiyac yoxdurla əlaqələndirsə də, Murad Musayevin son turdakı qələbəsindən sonra açıqlaması deyilənlərə tutarlı cavabdır. "Neftçi" kimi klub hər zaman öz adını, çəkisini qorumağı bacarmalıdır və tərəfdarları qarşısında buna borcludur. Ümumilikdə isə, köklü klubun problemləri son turlardakı nəticələrdən daha genişdir və təsadüfi hal daşımır".***

Bu sözləri Qol.az-a açıqlamasında "Neftçi"nin sabiq vitse-prezidenti Tahir Süleymanov klubun ölkə çempionatında son 5 oyundakı (3 məğlubiyyət, 2 heç-heçə) uğursuz çıxışı barədə danışarkən deyib.

O bildirib ki, "Sabah"dan 18, "Qarabağ"dan 25 xal geri qalmaq uğursuzluq yox, "Neftçi" adına faciədir: "Azarkeşlərin haqlı narazılığı pik həddə çatıb. Artıq növbəti dəfə "günahkar"lar, yeni qurbanlar axtarılır. Nə rumınıyalı mütəxəssis, nə ondan əvvəlkilər, nə də ki, saysız-hesabsız legionerlər, yerli futbolçular özbaşına kluba gəlməyiblər, "Neftçi"ni faktiki idarə edənlər tərəfindən komandaya gətiriliblər. Hər il kluba Azərbaycan futbolu şərtlərinə uyğun külli miqdarda vəsait xərclənir. "Neftçi" strateji olaraq düzgün idarə olunmur və illərdir eyni ssenari davam edir. Məşqçilər, futbolçular əlcək kimi dəyişdirilir, əsl günahkarlar isə bəhanələrlə, yalanlarla azarkeşləri ümidləndirir, yenidən vaxt udulur".

T.Süleymanovun sözlərinə görə, "Neftçi"də problemlər qlobal xarakter daşıyır: "İllərdir eyni xətt üzrə icraçı rəhbərlər göndərilir. Yarıtmaz idarəçilik, məsuliyyətsizlik, məğlub psixologiya ilə tarixi klub çökdürülüb, bütün antirekordlara imza atılıb. "Neftçi"də nəinki strateji futbol sistemsizliyi, qəbulolunmaz nəticəsizlik mövcuddur. Klub ideoloji olaraq da yararsız hala salınıb".

O, "Qarabağ" və "Sabah"ın Türkiyədəki zəlzələdən zərərçəkənlərə yardım məqsədi ilə yoldaşlıq görüşləri keçirdini, "Neftçi"nin isə bu prosesdən kənarda qaldığını söyləyib: "Qardaş Türkiyədə baş vermiş faciəvi zəlzələdə zərərçəkmişlərə hər iki ölkənin aparıcı klubları biganə qalmadı, "Qalatasaray", "Beşiktaş" kimi böyük klublar "Qarabağ" və "Sabah"ın dəvəti ilə Bakıya təşrif buyurdu. Tribunaları dolduran, sevimli komandalarını dəstəkləyən 100 minə yaxın azarkeş öz maddi-mənəvi dəstəyini əsirgəmədi. "Neftçi" kimi klub bu nəcib prosesdən kənarda qalıb. Bu, tək futbol, klub nüfuzu adına deyil, dövlət, dövlətçilik baxımından da yolverilməzdir. "Neftçi" öz azarkeşləri ilə birgə hər zaman öndə olmağı bacarmalıdır, kənardan prosesləri izləməməlidir".

T.Süleymanov vurğulayıb ki, hər 3-5 aydan bir dəstə-dəstə yararsız transferlərlə komanda düzəlməz: "Ancaq milyonlar havaya sovrula bilər. Çıxış yolu, "Neftçi"nin yenidən dirçəlməsi, liderliyə qayıtması üçün təsisçi/baş sponsor tərəfindən qəti və doğru addımlar atılmalı, tarixi klubun böyüklüyünü dərk edən, bu yükü öz üzərinə götürə biləcək bacarıqlı insanlar kluba cəlb edilməlidir. "Neftçi" adına qızıldan qiymətli illər itirilib, bu uğursuzluqlara nəhayət ki, son qoyulmalıdır!".

"Neftçi"nin baş məşqçisi Laurentsiu Regekampf "Şamaxı" ilə ötən həftə keçirilən oyundan (1:1) sonra təşkil olunan mətbuat konfransında hazırda komandasın çətin vəziyyətdə olduğunu etiraf edib: "Problemin səbəbini öyrənməliyik. Düzdür, üçüncü yeri təmin etmişik və kubokda finala yüksəlmişik. Bu oyun bizim üçün daha asan olmalıdır. Çünki üzərimizdə təzyiq yoxdur, rahat futbol oynamalıyıq. Bu cür matçlardan istifadə edib, komanda olaraq özümüzdə güvən, rahatlıq yaratmalıyıq, rəqib qapısı önündə qol epizodlarına girməliyik, bir sözlə, futboldan həzz almalıyıq. Amma bu gün bunu görmədim. Xüsusən də ikinci hissədə. Görürəm ki, futbolçular ancaq nəticəni düşünürlər. Halbuki nəticəni yox, futbol oynamağı düşünməlidilər. Bu qədər top itkisi yolverilməzdir. Daha yaxşı oynamalıyıq. Bu problemləri özümüz yaratmışıq və bu vəziyyətdən çıxacağıq".

# Ançelotti: "Qvardiolanı təbrik etdim, çünki..."

***"Real"ın baş məşqçisi Karlo Ançelotti Çempionlar Liqasının yarımfinalının cavab oyununda "Mançester Siti"yə uduzaraq mübarizəni dayandırmaları (0:4, ilk oyun - 1:1) barədə danışıb.***



Qol.az AS-a istinadən xəbər verir ki, mütəxəssis ağır məğlubiyyət aldıqlarını deyib: "Rəqib daha yaxşı oynadı və qələbəyə layiq idi. "Mançester Siti" oyunun əvvəlində bizə çox təzyiq göstərdi və bu, işə yaradı. Onlar üstünlüyü ələ keçirə bildilər. Bundan sonra oyuna qayıtmaq bizim üçün çətin oldu. İkinci hissədə cəhd etdik, alınmadı. İndi oyunu qiymətləndirməyin mənası yoxdur. Belə məğlub olmaq bizi çox incidir".

Ançelotti görüşdən sonra rəqibin baş məşqçisi Xosep Qvardiolanı təbrik etdiyini söyləyib: "Çempionlar Liqasının yarımfinalına çıxırsan, güclü rəqiblə qarşılaşırsan, oyunda ona yol verirsən və finalsız qalırsan. Yaxşı, indi sən dərs almalısan və növbəti dəfə daha yaxşı çıxış etməlisən. Qvardiolanı oyundan sonra təbrik etdim, çünki onun komandası daha yaxşı idi. Keçən il biz "Mançester Siti"ni məğlub edə bildik, bu il növbə onların oldu. Futbol belə işləyir. Bəzən uduzursan".

# Kurtua "Mançester Siti"yə qarşı zədəli halda oynayıb



***"Real"ın qapıçısı Tibo Kurtua Çempionlar Liqasının 1/2 final mərhələsində "Mançester Siti" ilə cavab oyununa (0:4) zədəli halda çıxıb.***

Qol.az xəbər verir ki, bu barədə "Marca" məlumat yayıb. Belçikalı qolkiper mayın 13-də "Xetafe" ilə La Liqa matçında zədə alıb. Buna baxmayaraq, o, Mançester təmsilçisinə qarşı oynayıb.

"Mançester Siti" Çempionlar Liqasının finalında "İnter"lə qarşılaşacaq. Final oyunu iyunun 10-da İstanbulda keçiriləcək.

# ÇL-in finalçıları ilk dəfə rəsmi oyunda üz-üzə gələcəklər



***Çempionlar Liqasının bu mövsüm keçiriləcək finalında qeyri-adi hadisə baş verəcək.***

Qol.az "OptaJoe"yə istinadən xəbər verir ki, bu görüş finalçılar "Mançester Siti" və "İnter" arasında ilk rəsmi oyun olacaq. Buna qədər komandalar yalnız yoldaşlıq görüşlərində qarşılaşıblar.

Son 18 ildə ilk dəfədir ki, Avropanın əsas klub turnirinin finalında belə hal baş verəcək.

Qeyd edək ki, ÇL-in finalı iyunun 10-u İstanbulda keçiriləcək.

# Hakan Çalhanoğlu ÇL-də həftənin oyunçusu adına namizəd oldu



***Çempionlar Liqasında bu həftənin ən yaxşı futbolçusu adına namizədlər müəyyənləşib.***

Namizədlər sırasında "İnter"dən Hakan Çalhanoğlu və Lautaro Martines, "Mançester Siti"dən Bernardu Silva və Rodri yer alıb.

Azarkeşlər qurumun saytında keçirilən səsvermədə qalibi seçəcəklər.

# Avroliqada finalçılar bəlli olur

***UEFA Avropa Liqasında finalçılar bəlli olub.***

Yarımfinalın cavab oyunlarından sonra həlledici görüşə vəsiqə qazanan komandalar müəyyənləşib.

İlk oyunda İtaliyada "Yuventus"la 1:1 hesablı heç-heçəyə razılaşan "Sevilya" bu dəfə rəqibini İspaniyada qəbul edəcək. "Ramon Sançes Pisxuan" stadionunda oynanılacaq qarşılaşmanın baş hakimi niderlandlı Denni Makkeli olacaq.

Yarımfinalın digər cavab oyunda İtaliya "Roma"sı Almaniyada "Bayer"lə qarşılaşacaq. "Bay Arena"da keçiriləcək görüşü sloveniyalı FIFA referisi Slavko Vinçiç idarə edəcək. Komandalar arasında ilk dueli "canavarlar" qazanıb - 1:0.

**UEFA Avropa Liqası**

Yarımfinal, cavab oyunları

**18 may**

23:00. "Sevilya" (İspaniya) - "Yuventus" (İtaliya)
Baş hakim: Denni Makkeli (Niderland)
Sevilya, "Ramon Sançes Pisxuan" stadionu
İlk oyun - 1:1

23:00. "Bayer" (Almaniya) - "Roma" (İtaliya)
Baş hakim: Slavko Vinçiç (Sloveniya)
Leverkuzen, "Bay Arena"
İlk oyun - 0:1

Qeyd edək ki, Avropa Liqasının final oyunu mayın 31-də Macarıstanın paytaxtı Budapeştdəki "Puşkaş Arena"da baş tutacaq.